

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Hədəfə doğru!

## Gecikmədən və tələsmədən!




# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 may 2025-ci il, şənbə
№ 084 (6911)
Qiymәti 60 qəpik


# 6-cı Zirvə...

Bax səh. 2



## “Avropa Siyasi Birliyi”: təhlükəsizliyi, iqtisadi sabitliyi təşviq edən platforma

Bax səh. 2

# Azərbaycan Avropa İttifaqının vacib və etibarlı tərəfdaşıdır

Bax səh. 2



## Regional liderlikdən qlobal aktorluğa ...

Bax səh. 3

## Milli Məclisin iclasında... Nazirlər Kabinetinin Parlamentə hesabat vermə tarixi dəyişdirilir

Bax səh. 4



## Diqqət İstanbula!!!

Bax səh. 6

## 18 may 1992-ci il...

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycana qarşı genişmiqyaslı işğalçılıq siyasətinə başlayan Ermənistanın əsas məqsədlərindən biri respublikamızın müəyyən sayda erməni əhalinin yaşadığı keçmiş Dağlıq Qarabağ bölgəsi ilə coğrafi bağlantı yaratmaq idi. 1992-ci il mayın 18-də uca dağlar qoynunda qərar tutan və alınmaz qala sayılan Laçın rayonunun,1993-cü ilin aprelində isə Kəlbəcərin işğal altına düşməsi ilə düşmən öz istəyinə çatdı. Belə ki, sözügedən rayonların işğal altına düşməsi nəticəsində Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında birbaşa əlaqə təmin...

Bax səh. 5

## “Yaşıl enerji” zonasında imkanlar artır

Energetika Nazirliyində işğaldan azad edilmiş ərazilərdə yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə İşçi Qrupunun 9-cu iclası keçirilib. İşçi Qrupunun sədri, energetika naziri Pərviz Şahbazov azad edilmiş ərazilərdə həyata keçirilən bərpa, tikinti, quruculuq tədbirlərindən bəhs edərək bu prosesdə “yaşıl enerji zonası” konsepsiyasının tətbiqinə xüsusi...

Bax səh. 4

## Ekoloji maarifləndirmə

Bu gün ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, ətraf mühitin mühafizə edilməsi ümumbəşəri problemə çevrilib. Sağlamlığımızı təmin etmək üçün ilk növbədə təbiəti sağlamlaşdırmaq, ətraf mühiti qorumaq lazımdır. 21-ci əsrdə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı, gələcəkdə bərpası mümkün olmayacaq təbii sərvətlərin həddindən artıq istismarı ətraf mühitə mənfi təsirini qaçılmaz edib.

Ekoloji həssaslıq həm də fərdlərin və cəmiyyətlərin bütöv, davamlı həllər tapması və həyatın bütün səviyyələrində təbii mühitə...

Bax səh. 5

## 5 faiz təklifi ətrafında gərgin mübahisə...

Yaxın zamanda NATO-da daxili ziddiyyətlərin gərginləşməsinə şahidi ola bilərik. Belə ki, ABŞ Dövlət Katibi Marko Rubio “Foxnews”-a müsahibəsində bildirib ki, NATO-nun iyunun 24 - 25-də Haaqada keçiriləcək sammitində müdafiə xərclərinin artırılması ilə bağlı məsələ xüsusi müzakirə predmeti olacaq. Onun sözlərinə görə, alyansın üzv ölkələrinin...

Bax səh. 7



## Hindistandan qeyri-humanist davranış...

Bax səh. 6

## Berbok Baş Assambleyanın yeni sədri olarsa...

Bax səh. 7

# Azərbaycan Avropa İttifaqının vacib və etibarlı tərəfdaşıdır

## Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti və Avropa Komissiyasının Prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 16-da Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Antonio Koşta və Ursula Fon der Lyayen Azərbaycanın Avropa İttifaqının vacib və etibarlı tərəfdaşı olduğunu bildirərək, ölkəmizin xüsusilə Avropanın enerjiyə ehtiyacı olan zaman göstərdiyi dəstəyi yüksək qiymətləndirdiklərini dedilər.

Azərbaycanın Mərkəzi Asiya regionu ilə əlaqələri və Orta Dəhlizdə aparıcı rolu vurğulandı. Bununla yanaşı, ölkəmizin regionda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin olunmasında müxtəlif tərəflər arasında dialoqun aparılması üçün platforma rolu oynadığı da məmnunluqla qeyd edildi.



Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini deyərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyində roluna toxundu. Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu dedi, bu gün Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 ölkəsinin enerji təminatında Azərbaycanın rolunu vurğuladı.

Ölkəmizin Orta Dəhlizdə oynadığı vacib rola toxunan Prezident İlham Əliyev bu dəhlizin inkişafı məqsədilə Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturuna qoyulmuş investisiyaları və bu istiqamətdə aparılan işləri qeyd etdi. Dövlətimizin başçısı Orta Dəhlizlə yüklərin daşınma həcminin artdığını da dedi.

Söhbət zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri səviyyəsində Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq haqqında Sazişə, həmçinin Qara dənizin dibi ilə bərpaolunan enerji resurslarının ixracı üçün elektrik kabel xətti layihələrinə toxunuldu.

Avropa İttifaqı ilə əməkdaşlıq üçün bu istiqamətlərdə geniş imkanların olduğu qeyd edildi.

Görüşdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrə toxunuldu, bu sahədə də Avropa İttifaqı ilə əməkdaşlıq üçün böyük perspektivlərin mövcud olduğu vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# 6-cı Zirvə...

## "Avropa Siyasi Birliyi": təhlükəsizliyi, iqtisadi sabitliyi təşviq edən platforma

Albaniyanın paytaxtı Tirana şəhərində "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Albaniya Respublikasının Baş naziri Edi Rama Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.

Toplantı iştirakçıları birgə foto çəkdirdilər.

***

Builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Tədbirdə innovasiya, enerji və sənaye davamlılığına keçid yolu ilə rəqabətqabiliyyətli və iqtisadi təhlükəsizlik, miqrasiya, Avropanın yeni dünya kontekstində lider mövqe tutması kimi mövzular müzakirə olunur.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik və demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi və iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.













# İlham Əliyev "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib

Mayın 16-da Tiranada "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış plenar sessiyası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



# Ölkələrimiz arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

Mayın 16-da Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Albaniya Respublikasının Baş naziri Edi Rama arasında işçi nahar əsnasında görüş olub.

Dövlətimizin başçısı "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısının uğurla təşkil edilməsi münasibətilə Baş nazirə təbriklərini çatdırıb.

Söhbət zamanı Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlərin xüsusilə enerji sahəsində inkişafından, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edilib. Albaniyanın Korça şəhərinin Azərbaycan qazı ilə təchiz edilməsi layihəsinin önəmi vurğulanıb.

Azərbaycan Prezidenti və Albaniyanın Baş naziri ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.



# Regional liderlikdən qlobal aktorluğa ...

## Azərbaycan Qlobal Cənubun liderinə çevrilir

Son illərdə dünya siyasətində baş verən köklü dəyişikliklər beynəlxalq münasibətlər sisteminin köklü yenilənməyə, korreksiyaya ehtiyac duyduğunu göstərir. Etiraf olunmalıdır ki, qlobal sistemin inkişafında əsas rola malik olan nizam qaydaları yenilənir - son 10 il ərzində baş verən siyasi - iqtisadi, hətta hərbi- strateji proseslər beynəlxalq nizamın ağırlıq mərkəzlərinin yer dəyişdiyini sübuta yetirir. Eyni zamanda, həm regional, həm də qlobal miqyasda yeni güc mərkəzləri formalaşır, inkişaf etməkdə olan ölkələrin - Qlobal Cənubun - beynəlxalq gündəmdə rolu artır.

**Ölkəmizin ədalətə, suverenliyə, dayanıqlı inkişafa və qlobal həmrəyliyə əsaslanan siyasəti...**

Yeni siyasi-iqtisadi nizamın yaradıcı və istiqamətləndirici komponentləri arasında bərabərtərəfli əməkdaşlıq, beynəlxalq hüquqa hörmət, qlobal təhlükəsizliyin təmininə töhfə, regional maraqların müdafiəsi kimi aparıcı ünsürlər xüsusi əhəmiyyət daşıyır. Bu yeni reallıq fonunda Azərbaycan balanslı siyasəti, humanitar təşəbbüsləri və qlobal dialoqa verdiyi töhfələrlə Qlobal Cənubun aparıcı liderlərindən birinə çevrilməkdədir.

## "Qlobal Cənubun yüksəlişi və Qərb: Azərbaycanın rolu, əməkdaşlıq və inkişaf üçün yeni imkanlar"

Yeri gəlmişkən, mayın 14-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin genişləndirilmiş iclası keçirilib və "Qlobal Cənubun yüksəlişi və Qərb: Azərbaycanın rolu, əməkdaşlıq və inkişaf üçün yeni imkanlar" mövzusunda müzakirələr aparılıb. Bildirilib ki, dövlətlər arasındakı qarşılıqlı münasibət qaydaları və ənənəvi institutların sarsılması xaosa, müharibələrə və qeyri-müəyyənliyə yol açıb. Beynəlxalq münasibətlərdəki bu böhran fonunda Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl, proqnozlaşdırıla bilən, adekvat, sülhpərvər və milli maraqlara xidmət edən xarici siyasət aparmaq qabiliyyətini nümayiş etdirir. Bu, regionda formalaşmış yeni reallıqlar sayəsində mümkün olub. Bu yanaşma, Azərbaycana ərazi bütövlüyünü və suverenliyini bərpa etməyə imkan verməklə yanaşı, ölkəmizin beynəlxalq münasibətlər sistemindəki rolunu da əhəmiyyətli dərəcədə artırıb. Qeyd olunub ki, beynəlxalq münasibətlərin tənzimlənməsinin daha da çətinləşdiyi, "Şimal-Cənub" probleminin daha da mürəkkəbləşdiyi bu çətin dövrdə ölkəmiz öz potensialını əminliklə nümayiş etdirir. Azərbaycanın Qlobal Cənub və Qərb arasında siyasi və iqtisadi dialoqun gücləndirilməsi istiqamətində mühüm körpü rolu oynamaq potensialından bəhs edən komitə sədri Səməd Seyidov qeyd edib ki, ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi və COP29 kimi beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, ölkənin qlobal iqlim gündəliyindəki rolunu və Qlobal Cənub və Qərb arasında iqlim məsələlərində əməkdaşlığın inkişafına verdiyi töhfəni göstərir. Eyni zamanda, Azərbaycanın coğrafi mövqeyi və ölkənin inkişaf etmiş nəqliyyat və enerji infrastrukturu onu regionun əsas tranzit və enerji mərkəzinə çevirib.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Azərbaycanın son illər Qlobal Cənubda getdikcə güclənən və beynəlxalq səviyyədə tanınan mövqeyi barədə danışıb. Bildirib ki, Azərbaycan xarici siyasətdə çoxtərəfliliyə böyük dəstək verən ölkələrdən biridir.

Qeyd olunub ki, beynəlxalq arenada yüksəliş mərhələsinə qədəm qoyan Qlobal Cənubda Azərbaycanın artan nüfuzu onun müstəqil, qərəzsiz, beynəlxalq hüquqa və ədalətə əsaslanan çoxtərəfli siyasəti ilə qlobal qeyri-bərabərliyin azaldılmasına, dialoqun qurulmasına verdiyi töhfələrlə bağlıdır.

## Qoşulmama Hərəkatının lideri, COP29-un ev sahibi...

Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv olsa da, qısa zamanda bu təşkilat daxilində fəal və təşəbbüskar mövqe nümayiş etdirib. 2019-2023-cü illərdə Azərbaycanın sədrliyi dövrü bu baxımdan tarixi mərhələ hesab olunur - Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz pandemiya dövründə ədalətli yanaşmanın, bərabər imkanların və humanitar həmrəyliyin müdafiəçisi kimi çıxış edib. Beləliklə, Azərbaycanın beynəlxalq miqyasda təşkil etdiyi bu təşəbbüs Qlobal Cənubun çətin vəziyyətdən xilas olması üçün bir stimula çevrilib. Bununla bağlı çıxışlarının birində Prezident İlham Əliyev qeyd etmişdi ki, Azərbaycan pandemiya ilə mübarizədə təkcə öz vətəndaşlarının deyil, digər ölkələrin də sağlamlığını düşünərək onlarla həmrəylik nümayiş etdirdi: "Biz bu ağır dövrdə 80-dən çox ölkəyə yardım göndərdik"".

Eyni məntiqlə yanaşsaq, ötən ilin payızında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının - COP29-un Azərbaycanı birbaşa qlobal iqlim gündəminin mərkəzinə çevirdiyini də görə bilərik. Bu mühüm sammit ilk dəfə Qafqazda və müsəlman ölkəsində təşkil olundu - daha da önəmlisi, Azərbaycan bu tədbirdə Qlobal Cənubun səsini eşitdirməyə, onların haqlı tələblərini beynəlxalq ictimaiyyətə çatdırmağa çalışdı. Bakının uzun illərdir əldə edilməsi mümkün olmayan nailiyyətə imza ataraq, inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə ayrılacaq iqlim maliyyəsini 300 milyard ABŞ dolları məbləğində razılaşdırılmasına nail olması COP29-un tarixinə yazıldı. Prezident İlham Əliyev bu barədə qeyd edib: "Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə qlobal həmrəyliyi təşviq etməyə və Qlobal Cənubun maraqlarını müdafiə etməyə hazırdır".

## Enerji təhlükəsizliyindən beynəlxalq həmrəyliyə

Azərbaycanın Qlobal Cənubdakı mövqeyini gücləndirən əsas amillərdən biri də onun enerji siyasətidir. Cənub Qaz Dəhlizi layihəsi vasitəsilə Azərbaycan həm Avropanın enerji təhlükəsizliyini təmin edir, həm də sabit və proqnozlaşdırıla bilən tərəfdaş obrazını möhkəmləndirir. Ölkəmiz bərpa olunan enerji sahəsində də əməkdaşlıq qapılarını Qlobal Cənub ölkələrinə açır. Ümumiyyətlə, yeni dövrdə enerji sadəcə iqtisadi güc deyil, siyasi təsir və geosiyasi mövqe deməkdir. Azərbaycan isə məhz bu müstəvidə həyata keçirdiyi uzaqgörən enerji siyasəti ilə həm öz milli maraqlarını təmin edir, həm də dünya enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bu siyasət Azərbaycanın Qlobal Cənubda artan nüfuzunun və lider mövqeyinin əsas sütunlarından birinə çevirib. Azərbaycanın enerji siyasətində əsas prinsip müstəqillik və balansdır. Bu siyasət Qlobal Cənubda, xüsusilə də enerji resurslarına malik və ya enerji idxalçısı olan ölkələrdə rəğbətlə qarşılanır. Çünki Azərbaycan enerji siyasətində diktə etmir, əməkdaşlıq təklif edir. "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, TANAP və TAP kimi nəhəng enerji layihələri Azərbaycanın regionda və Avrasiyada etibarlı tərəfdaş imicini formalaşdırıb. Hazırda Avropa ölkələri üçün qaz təchizatında əsas alternativ mənbə olan Azərbaycan, eyni zamanda inkişaf etməkdə olan ölkələrə təcrübə, texnologiya və enerji diplomatiyası modeli təqdim edir. COP29-a ev sahibliyi etməklə Azərbaycan bir daha sübut etdi ki, o, yalnız neft və qaz istehsalçısı deyil, həm də enerji keçidində fəal oyunçudur. Bu, xüsusilə Afrika və Asiya ölkələri üçün nümunəvi yanaşmadır. Prezident Əliyevin bildirdiyi kimi, "Azərbaycan yeni enerji dövrünə qədəm qoyur. Biz yaşıl enerjiyə keçidi dəstəkləyirik, amma bu keçid inkişaf etməkdə olan ölkələrin maraqları nəzərə alınaraq həyata keçirilməlidir".

Qlobal Cənubda açıq şəkildə önə çıxan Azərbaycan enerji siyasəti vasitəsilə yalnız iqtisadi münasibətlər qurmur, eyni zamanda siyasi və diplomatik ittifaqlar da formalaşdırır. Bura Mərkəzi Asiya, Körfəz ölkələri, Afrika və Latın Amerikası kimi regionlarla əməkdaşlıq daxildir. Neft və qaz ixracı, bərpa olunan enerji üzrə texniki tərəfdaşlıq, infrastrukturun qurulması və təcrübə mübadiləsi kimi sahələrdə əlaqələr genişlənir.



## Afrika və kolonializmdən əziyyət çəkən dövlətlərin dəstəkçisi...

Azərbaycanın Qlobal Cənubun liderlərindən birinə çevrilmə prosesində ən diqqət çəkən məqamlardan biri rəsmi Bakının Afrika və kolonializmdən əziyyət çəkən ölkələr ilə qarşılıqlı münasibətlərinin inkişafıdır. Bu bir reallıqdır ki, əsrlərlə kolonializm və istismar siyasətindən əziyyət çəkmiş ölkələr indi beynəlxalq sistemdə bərabərlik, ədalət və tərəfdaşlıq axtarırlar - belə bir geosiyasi konfiqurasiyada Azərbaycan balanslı, müstəqil və suveren mövqeyi ilə bu ölkələrin etimadını qazanır və Qlobal Cənubda da etibarlı tərəfdaş kimi şöhrət tapır. Sirr deyil ki, Afrika qitəsi və Latın Amerikası kimi regionlar onilliklər ərzində Qərb mərkəzli siyasətin kölgəsində yaşayıb. İndi isə bu regionların çoxu öz milli maraqlarına hörmət edən, bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətlər axtarışındadır. Azərbaycanın beynəlxalq siyasətdə tutduğu prinsipial mövqe, xüsusilə də suverenlik, daxili işlərə qarışmama və ədalət prinsipinə sadiqliyi həmin ölkələrdə Bakıya olan marağı artırıb. Burada da Azərbaycanın Qoşulmama Hərəkatındakı liderlik funksiyası önə çıxır - 2019-2023-cü illərdəki sədrlik dövrü Afrika ölkələri ilə münasibətlərdə Azərbaycan yeni səhifə açıb. Bu müddət ərzində Bakının təşəbbüsü ilə bir neçə Afrika ölkəsinə humanitar yardım göstərilib, pandemiya ilə mübarizə üçün tibbi ləvazimatlar göndərilib və ən əsası, bu ölkələrin beynəlxalq səviyyədə səsi eşidilib. Eyni zamanda, Bakının COP29-a ev sahibliyi etməsi Azərbaycanı Afrika ölkələrinin diqqət mərkəzinə gətirib. Bu ölkələr iqlim dəyişikliklərinin təsirini ən ağır şəkildə hiss etsələr də, qlobal iqlim siyasətində səsləri çox zaman nəzərə alınmır. Azərbaycan bu ölkələrin iqlim gündəminə daxil edilməsini dəstəkləyən nadir dövlətlərdən biridir. Bu səbəbdəndir ki, artıq 30-dan çox Afrika ölkəsi Azərbaycanla ikitərəfli görüşlər, texniki əməkdaşlıq və gələcək enerji, təhsil və kənd təsərrüfatı sahələrində tərəfdaşlıqlar barədə dialoqa başlayıb.

## Qlobal Cənubun problemlərini anlayan, onların müdafiəsinə qalxan və praktiki həll yolları təklif edən dövlət

Beləliklə, müasir Azərbaycan artıq tək regional lider deyil, həm də qlobal miqyasda məsuliyyətli aktor kimi tanınır. Qlobal Cənubun problemlərini anlayan, onların müdafiəsinə qalxan və praktiki həll yolları təklif edən dövlət kimi ölkəmiz beynəlxalq münasibətlərdə artan çəkisini göstərməkdədir. Azərbaycanın apardığı siyasət bir daha sübut edir ki, Bakı ədalətə, suverenliyə, dayanıqlı inkişafa və qlobal həmrəyliyə əsaslanan yeni dünya düzənində söz sahibi olan liderlərdən birinə çevrilib.

*PƏRVİZ SADAYOĞLU*

# Milli Məclisin iclasında...
# Nazirlər Kabinetinin Parlamentə hesabat vermə tarixi dəyişdirilir




Mayın 16-da Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 12 məsələ daxil edilib. Spiker Sahibə Qafarova bildirib ki, gündəliyin ilk məsələsi İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2024-cü ildə Azərbaycanda insan alverinə qarşı mübarizəyə dair məlumatıdır.

Məlumatı Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə milli koordinatoru, daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov təqdim edib. S.Əzimov qeyd edib ki, hesabat "İnsan alverinə qarşı mübarizə haqqında" qanunun 7.5-ci maddəsinin icrasının təmin edilməsi məqsədilə Baş Prokurorluğunun, Ombudsman Aparatının, Vəkillər Kollegiyasının, beynəlxalq təsisatların, 20 qeyri-hökumət təşkilatının, 32 mərkəzi və 69 yerli icra hakimiyyəti orqanının, eləcə də Daxili İşlər Nazirliyinin aparatının struktur qurumlarının və ərazi polis orqanlarının məlumatları, o cümlədən xüsusi polis qurumunun apardığı monitorinq və təhlillər əsasında hazırlanıb.

## Ötən il 91 nəfər insan alverinin qurbanı olub

Bildirilib ki, aidiyyəti dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla birgə görülən tədbirlərlə müvafiq sahədə əməliyyat şəraitinə davamlı nəzarət, risk qrupuna aid şəxslərin sözügedən cinayətlərdən müdafiəsi təmin olunub, qurbanlar fiziki, psixoloji və sosial reabilitasiya tədbirləri ilə tam əhatə edilib. Məlumata əsasən, ötən il Azərbaycan vətəndaşları ilə bağlı insan alveri və məcburi əməklə əlaqədar olan cinayət işləri üzrə 91 insan alveri qurbanı (90-ı qadın, 1-i kişi) müəyyən edilib. 2024-cü ildə 206 insan alveri cinayəti qeydə alınıb. Həmin faktlar üzrə 15 cinayət işi başlanılaraq 16 şəxs (13 qadın, 3 kişi) təqsirləndirilən qismində cəlb edilib.

Hazırda insan alveri cinayəti törətməkdə təqsirləndirilən 11 nəfərin "İnterpol" kanalları ilə beynəlxalq axtarışı davam etdirilir. İnsan alveri və məcburi əmək qurbanlarının aşkarlanması məqsədilə keçirilmiş tədbirlər zamanı isə 4 miqrasiya kanalı müəyyən olunaraq, 15 cənabi saxlanılıb.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin vətəndaş müraciətləri əsasında apardığı yoxlamalarla isə 676 şəxsin əmək müqaviləsi olmadan işləməsi müəyyən edilərək işəgötürənlər ümumilikdə 2 milyon 643 min manat məbləğdə, habelə 7 fakt üzrə işçini əmək funksiyasına aid olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etməyə görə aidiyyəti vəzifəli şəxslər 8 min manat məbləğdə cərimələnib.

S.Əzimov onu da qeyd edib ki, aparılmış monitorinqlər nəticəsində insan alverinin təbliği ilə məşğul olan 156, cari ötən dövrdə isə 124 Teleqram, Tiktok və İnstaqram kanalı bağlanıb: "2024-cü ildə insan alveri əxlaqsızlıq yuvaları saxlamaq, yetkinlik yaşına çatmayanları ictimai mənəviyyata zidd əməllərə cəlbetmə, pornoqrafik materialları yaymaya görə 30 təqsirləndirilən şəxs yerli axtarışda olub, onlardan 16 nəfər, o cümlədən insan alverinə görə 3 nəfər saxlanılıb".

## Beynəlxalq hesabatlarda ölkəmiz müsbət mövqedədir

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışında bildirib ki, qlobal statistikaya əsasən, dünyada qurbanların sayı COVİD 19-dan sonra nəzərəçarpacaq dərəcədə azaldığı halda, 2023-cü ildə 25 faiz artıb. Qadınlar və qızlar dünya üzrə qurbanların 61 faizini təşkil edir. Onun sözlərinə görə, beynəlxalq hesabatlarda ölkəmiz müsbət indikatorlara malikdir: "Qlobal Mütəşəkkil Cinayətkarlıqla bağlı beynəlxalq indeksində (Global Organised Crime İndex) qonşu dövlətlər arzuolunmaz sıralarda yer alsa da, Azərbaycanın adı əks olunmayıb. Son 20 ildə insan alveri üzrə cinayətlərin ümumi sayı 2,532 təşkil edib. Əlbəttə, müxtəlif illərdə dinamika dəyişib. Xüsusilə 2007-2008 ci illərdə artıb, lakin sonra dövlətin sistemli tədbirləri hesabına sabit bir tendensiya müşahidə olunub. 20 ilə yekun vurarkən, indiyədək rəsmən bəyan edilən 650 insan alverçisinin içərisində qadınların xüsusi üstünlüyü təəssüf doğurur. İnsan alverçilərinin cinsi tərkibində 85 faizini, rəqəmlə deyilsə, 552 nəfərini qadınlar, 15 faizini, yəni 98 nəfərini isə kişilər təşkil edir".

## Yeni Milli Fəaliyyət Planı hazırlanacaq

Çıxış edən parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli isə bildirib ki, 2024-cü il üçün insan alverinə qarşı mübarizəyə dair məlumat həm də son Milli Fəaliyyət Planının demək olar ki, yekunudur. Çünki bundan sonra yeni milli fəaliyyət hazırlanacaq. Onun sözlərinə görə, bu illər ərzində Daxili İşlər Nazirliyi və bütövlükdə dövlət orqanları bu sahədə sistemli, davamlı və əlaqələndirilmiş şəkildə birgə müsbət iş aparıb və bunun müsbət nəticələrini görməkdəyik: "Dövlət orqanları, vətəndaş cəmiyyəti və medianın vahid mövqeyi insan alverinə qarşı mübarizəni həqiqətən də milli səviyyədə bir fəaliyyətə çevirib. Bir sıra hallarda beynəlxalq təşkilatların qeyri-obyektiv hesabatlar verməsinə baxmayaraq, əməkdaşlıq davam edir. 2025-2030-cu illər üçün yeni Fəaliyyət Planı dünyada və regionda baş verən bir sıra mənaqişələr insan alveri üçün həm də yeni təhdidlər kimi qiymətləndirilməli və bu amillər gələcəkdə nəzərə alınmalıdır. Rəqəmsal alətlərin və müasir texnologiyaların tətbiqi, bununla yanaşı insan hüquqlarının səmərəli müdafiəsi əsas vəzifələrdən biri olmalıdır".

Müzakirələr zamanı çıxış edən millət vəkilləri illik məlumatla bağlı fikirlərini bildiriblər. Sonra məsələ səsə qoyularaq qəbul olunub.

## Nazirlər Kabineti hər il martın 31-dək illik hesabat verəcək

İclasda daha sonra bir sıra qanun layihələri üçüncü oxunuşda təsdiqlənib.

Sonra "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) məsələsi müzakirəyə çıxarılıb. Dəyişikliyə əsasən, Nazirlər Kabineti hər il martın 31-dək Milli Məclisin yaz sessiyasında illik hesabat verəcək.

Millət vəkilləri "İstilik təchizatı haqqında" qanun layihəsini də birinci oxunuşda müzakirə ediblər. Layihəyə əsasən, müəyyən hallar istisna olmaqla, bu qanun qüvvəyə mindikdən sonra tikilən çoxmənzilli yaşayış binaların layihələrində binaya aid olan bütün mənzillərin vahid bir istilik mənbəyindən və ya bir neçə binanı əhatə edən vahid şəbəkə vasitəsilə istilik enerjisi ilə təchiz edilməsi nəzərdə tutulmalıdır. Çoxmənzilli yaşayış binaları layihələndirilərkən layihələrində hər bir mənzil üzrə fərdi istilik sistemlərinin quraşdırılmasının nəzərdə tutulmasına yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyən edilən hallarda yol verilir. Halların mövcudluğuna hər bir bina üzrə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikinti layihələrinin ekspertizadan keçirilməsi zamanı baxılır.

## Növbəti iclas mayın 23-də keçiriləcək

Bildirilib ki, mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin məcburi hala gətirilməsi bu sahədə ciddi dəyişikliyə səbəb olacaq və nəticədə enerji resurslarına qənaət edilməsi, ətraf mühitə atılan emissiyaların azaldılması təmin ediləcək. Sənəd hazırlanarkən beynəlxalq təcrübə araşdırılıb və layihədə nəzərə alınıb. Layihə hazırlanarkən nümunə kimi hansısa konkret bir ölkə seçilməmiş və onun qanunvericiliyindən istifadə edilməyib.

Qeyd edək ki, iclasda müzakirəyə çıxarılmış bütün məsələlər müzakirələrdən sonra qəbul olunub.

Sonda spiker Sahibə Qafarova Milli Məclisin növbəti iclasının mayın 23-də keçiriləcəyini bildirib.

*Nardar BAYRAMLI*

# "Yaşıl enerji" zonasında imkanlar artır

## Qarabağ və Şərqi Zəngəzurda yaşıl və səmərəli texnologiyaların tətbiqi müzakirə olunub

Energetika Nazirliyində işğaldan azad edilmiş ərazilərdə yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə İşçi Qrupunun 9-cu iclası keçirilib. İşçi Qrupunun sədri, energetika naziri Pərviz Şahbazov azad edilmiş ərazilərdə həyata keçirilən bərpa, tikinti, quruculuq tədbirlərindən bəhs edərək bu prosesdə "yaşıl enerji zonası" konsepsiyasının tətbiqinə xüsusi əhəmiyyət verildiyini bildirib. Bərpaolunan enerji sektorunda tətbiq olunan müasir yanaşmaların genişləndirilməsindən bəhs edən nazir günəş, külək və su elektrik stansiyalarının inşasının Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" kimi inkişafına töhfə verəcəyini vurğulayıb.

Qarabağ və Şərqi Zəngəzurun 11 şəhər və kəndində cari ilin ötən dövründə həyata keçirilmiş monitorinqlərin nəticələri də qənaətbəxş qiymətləndirilir. Ərazidə günəş panelləri və kollektorları, LED əsaslı işıqlandırma qurğuları, elektrik doldurma məntəqələri, "ağıllı" skamyaların quraşdırılması, habelə istilik izolyasiya materialları və enerjiyə qənaət edən lampalardan istifadənin mövcud vəziyyətini əks etdirən göstəricilər "ağıllı texnologiyalar"ın tətbiqinin geniş vüsət almasından xəbər verir.

Eləcə də fərdi yaşayış evləri və inzibati-ictimai binalarda damüstü günəş panellərinin quraşdırılması ilə bağlı icra mexanizmi nəzərdə tutulan plan üzrə davam etdirilir. Bu cür layihələrin genişləndirilməsi imkanları nəzərdə keçirilir. Ümumilikdə, İşçi Qrupu azad ərazilərin "yaşıl inkişafı" üzrə planların dayanmadan təxirəsalınmaz ritm üzrə icrasını diqqətdə saxlayacaq.

## Bölgədə "yaşıl enerji" istehsalı yüksəlir

Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "yaşıl enerji" məkanlarından biri kimi azad ərazilərin ehtiyatlarına böyük əhəmiyyət verilməkdədir. Sənəddə digər ərazilər kimi Qarabağ və Şərqi-Zəngəzurda da "yaşıl texnologiyalar"ın tətbiqinin genişləndirilməsi, elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpaolunan enerji mənbələrinin istehlakda payının artırılması nəzərdə tutulur.

Azad ərazilər hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin gücünə görə də ən zəngin bölgələrdəndir. "Yaşıl enerji" zonası elan edilmiş bu regionda bərpa olunan mənbələrin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Təkcə Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır.

Ötən il Qarabağ və Şərqi Zəngəzurdakı enerji mənbələrində yüksək enerji səmərəliliyi qeydə alınıb, ölkənin ümumi enerji sisteminə inteqrasiya prosesi hədsiz dərəcədə yaxşılaşıb. Kəlbəcər rayonu və eyni zamanda, işğaldan azad edilən ərazilərdə ən böyük su elektrik stansiyası hesab edilən 22,5 meqavatlıq "Yuxarı Vəng", habelə 4,3 meqavatlıq "Zar", Laçın rayonunda 2,8 meqavatlıq "Zabux", 4,6 meqavatlıq "Qarıqışlaq", Zəngilan rayonunda isə hər birinin gücü 10,5 meqavat olmaqla "Şayıflı", "Zəngilan" və "Sarıqışlaq" su elektrik stansiyaları istismara verilib. Ümumilikdə, bu bölgədə enerji təsərrüfatlarının bərpasına başlanmasından sonra 32 su elektrik stansiyası istifadəyə verilib.

2024-cü ildə bu bölgədə fəaliyyət göstərən 32 su elektrik stansiyasında (SES) 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal olunub. Həmin enerjinin üçdə biri, təxminən 200 milyon kilovat-saatı işğaldan azad edilən ərazilərin özünün enerji tələbatını ödəyib, qalan üçdə iki hissəsi isə respublikanın enerji sisteminə ötürülərək digər bölgələrin tələbatına yönləndirilib. Nəticədə 225 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

Qarabağ və Şərqi Zəngəzurda 2025-ci ildə 11 su elektrik stansiyasının açılışı da planlaşdırılır ki, nəticədə əlavə olaraq enerji istehsalı potensialı dövriyyəyə cəlb olunacaq. Azad ərazilərdə bioenerji potensialı da böyükdür ki, bu da bölgənin "yaşıl enerji" ixracı zəncirinə qoşulmasında üstünlüyünü təmin edəcək.



## Xarici şirkətlərin azad ərazilərdə "yaşıl sərmayələri"

İşğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji layihələrinə xarici investorların da marağı böyükdür. Yaponiyanın TEPSCO şirkətinin müxtəlif ssenariləri tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanıb. Yaponiya, Çin, Cənubi Koreya sərmayəçiləri bu bölgədə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, elektrik nəqliyyat vasitələrindən istifadə, günəş panellərinin qurulması, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan istifadə, istilik, soyutma və isti su təchizatında bərpa olunan enerji texnologiyalarının tətbiqi, ağıllı enerji idarəetmə kimi modellərin icrasın layihələrində iştirak etməkdədir. Çin şirkətləri işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının inkişaf etdirilməsinə, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında da iştirak etmək imkanlarını artırmaq niyyətindədir.

Ötən il "Nobel Energy" şirkəti ilə imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı mərkəzi yaradılmasına dair saziş imzalanıb. "SOCAR Green" MMC ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında əməkdaşlığa əsasən, "Meqa" layihəsi əsasında 2 qiqavat gücündə külək və günəş enerjisi layihələri icra olunmaqdadır. SOCAR və bp arasında imzalanmış sazişə əsasən, Cəbrayılda "Şəfər" günəş stansiyası inşa olunmaqdadır.

Beləliklə, azad edilmiş ərazilər ölkəmizin bərpaolunan enerji balansında əsas mənbələrdən biri olmaqla, yaxın 2 ildə "yaşıl enerji" nin Avropaya nəqlində də mühüm əhəmiyyət kəsb etmiş olacaq.

*ELBRUS CƏFƏRLİ*

# 18 may 1992-ci il...

## Laçın niyə işğal olundu?

**Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycana qarşı genişmiqyaslı işğalçılıq siyasətinə başlayan Ermənistanın əsas məqsədlərindən biri respublikamızın müəyyən sayda erməni əhalinin yaşadığı keçmiş Dağlıq Qarabağ bölgəsi ilə coğrafi bağlantı yaratmaq idi. 1992-ci il mayın 18-də uca dağlar qoynunda qərar tutan və alınmaz qala sayılan Laçın rayonunun,1993-cü ilin aprelində isə Kəlbəcərin işğal altına düşməsi ilə düşmən öz istəyinə çatdı. Belə ki, sözügedən rayonların işğal altına düşməsi nəticəsində Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında birbaşa əlaqə təmin olundu.**

### İşğaldan əvvəlki Laçın

Laçın şəhərinin əsası 1923-cü ildə qoyulub və yazıçı Tağı Şahbazi Simurqun təşəbbüsü ilə ona “Laçın” adı verilib. “Laçın” sözü özündə “gözəllik”, “şux qamət” mənalarını ehtiva edir. Bu ad şəhərə təbiətinin təkrarsız gözəlliyinə, dağlar qoynunda qərar tutmasına görə yaraşdırılıb.

İşğal altına düşənədək Laçın zəngin təbii sərvətləri, maldarlığın inkişafı üçün geniş imkanları olan bir diyar kimi tanınırdı. Ümumi sahəsi 1835 kvadratkilometr olan Laçın rayonu 72 min hektar yaylaq sahəsinə və 34 min hektar zəngin meşə massivinə malikdir. Relyefi dağlıq olan rayonun dəniz səviyyəsindən hündürlüyü 700 metrlə 3600 metr arasında dəyişir. Ən yüksək dağ zirvəsi Qızılboğazın hündürlüyü 3594 metrdir. Bol su ehtiyatlarına malik olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək Həkəri çayını (uzunluğu 113 km) yaradır ki, bu çay da Araza qovuşur.

1961-ci ildə rayon ərazisində nadir təbiət komplekslərini qorumaq üçün yaradılan Laçın Dövlət Təbiət Yasaqlığı 20 min hektar, 1987-ci ildə yaradılan Qaragöl Dövlət Təbiət Qoruğu isə 240 hektar ərazini əhatə edirdi. Qoruqda 68 növdən və 27 fəsilədən ibarət bitki örtüyü var idi.

Laçın ərazisindəki 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), əhəngdaşı, Qoçaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), kərpic-kirəmid istehsalına yararlı Novruzlu gil, həmçinin Quşçu pemza, Yuxarı Həkəriçay qum-çınqıl qarışığı, əqiq, 2 əlvan bəzək daşı, 3 vulkan külü və Minkənd mineral su yataqları var idi.

### Misli görünməmiş vandalizm əməlləri

İşğal illərində ermənilər Laçında misli görünməmiş vandalizm əməlləri törədiblər və təbii sərvətlərimizi vəhşicəsinə talayıblar. Laçının süqutu Azərbaycanın 1835 kvadratmetr ərazisinin, 13745 fərdi yaşayış evinin, 48 sənaye, 63 kənd təsərrüfatı obyektinin, 101 məktəbin, 5 məktəbdənkənar, 2 məktəbəqədər müəssisənin, 142 səhiyyə, 217 mədəni-maarif, 460 ticarət obyektinin, 30 rabitə qovşağı, peşə məktəbi, xalq teatrı, tarix-diyarşünaslıq muzeyinin itirilməsi, on minlərlə ailənin faciəsi ilə nəticələndi. Ümumi ziyan 7,1 milyard ABŞ dollarına bərabərdir. Rayonda 1992-ci ildə olan 58227 nəfər əhali respublikanın 59 rayon və şəhərində məskunlaşıb. İşğal nəticəsində 267 nəfər laçınlı öldürülüb, 66 nəfər girov götürülüb.

Laçın rayonunda yerləşən tarixi, mədəniyyət və memarlıq abidələri də erməni vəhşiliyinə tuş gəlib. Belə ki, rayondakı tarixi, mədəni və dini abidələrin bir çoxu dağıdılıb.



### Laçında Azərbaycan bayrağının dalğalanması böyük rəmzi məna daşıyır

Ermənilər elə hesab edirdilər ki, torpaqlarımızda əbədi yaşayacaqlar. İşğal dövründə Ermənistan tərəfindən digər ərazilərimizdə olduğu kimi, Laçında da qeyri-qanuni məskunlaşdırma siyasəti həyata keçirlib ki, bu da qatı müharibə cinayətidir. Laçında ermənilər heç vaxt kompakt şəkildə yaşamayıblar. 1992-ci ildə Laçın şəhərinin 7 min 829 sakini olub. İşğaldan əvvəlki son siyahıyaalmaya əsasən şəhərdə yaşayanların 99,1 faizi azərbaycanlılar olublar. Ermənilərin sayı isə barmaqla sayılacaq qədər az idi. Yalnız 2003-cü ildən etibarən əsasən Yaxın Şərqdə yaşayan erməni ailələrin şəhərdə məskunlaşdırılmasına başlanılıb. Ermənistanın statistik mənbələrinə əsasən, şəhərdə təxminən 500 erməni ailəsi və ya 2,190 erməni məskunlaşdırılıb.

Ancaq ermənilərin arzuları gözlərində qaldı. Ordumuz üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq əvvəlcə Kəlbəcərdə, 2022-ci il avqustun 26-da isə Laçın şəhərində, eləcə də Zabux və Sus kəndlərində yerləşdi. 2022-ci il sentyabrın 21-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçın şəhərinin mərkəzində üçrəngli bayrağımızı ucaltmaqla bizə sonsuz qürur hissi yaşatdı. Laçın şəhərində bayrağımızın ucaldılması böyük rəmzi məna daşıyır.

### Doğma yurd yerlərinə köç sevinci

İşğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdışın təmin olunması yeni strateji mərhələdə Azərbaycanın əsas prioritetləri sırasında yer alır. Zəngilanın Ağalı kəndi Böyük Qayıdışın ilk ünvanı oldu.

Artıq işğaldan azad olunmuş digər ərazilərin sakinləri kimi, laçınlılar da doğma yerlərə köç etməyin sevincini bölüşürlər. Gözəllik rəmzi olan Laçınımız indi yeni növrağını yaşayır. Bura ilk köç 2023-cü ilin may ayında reallaşıb. İlk olaraq şəhərə 20 ailə, yəni 97 nəfər köçürülüb.

Sonrakı mərhələdə Laçına daha bir neçə köç karvanı yola salınıb. Bütövlükdə, birinci mərhələdə Laçında 4 min insanın məskunlaşdırılması nəzərdə tutulub.

*Mübariz FEYİZLİ*

# Ekoloji maarifləndirmə

## Təbiəti qorumaq üçün nə etməliyik?

Bu gün ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, ətraf mühitin mühafizə edilməsi ümumbəşəri problemə çevrilib. Sağlamlığımızı təmin etmək üçün ilk növbədə təbiəti sağlamlaşdırmaq, ətraf mühiti qorumaq lazımdır. 21-ci əsrdə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı, gələcəkdə bərpası mümkün olmayacaq təbii sərvətlərin həddindən artıq istismarı ətraf mühitə mənfi təsirini qaçılmaz edib.

Ekoloji həssaslıq həm də fərdlərin və cəmiyyətlərin bütöv, davamlı həllər tapması və həyatın bütün səviyyələrində təbii mühitə və canlı təbiətə zərər verməyən, əksinə, onlara fayda verən fəaliyyətlərlə məşğul olması deməkdir. Başqa sözlə, ekoloji şüur, cəmiyyəti təşkil edən fərdlərin ətraf mühitdən xəbərdar olmaq və öz vəzifələrini yerinə yetirmək qabiliyyəti kimi də müəyyən edilə bilər.

Məlumdur ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

### Ekoloji maarifləndirmənin əhəmiyyəti

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən ekoloq Sadiq Həsənov bildirib ki, ekoloji maarifləndirmə təbii sərvətlərin davamlı şəkildə qorunması və gələcək nəsillərin həyat keyfiyyətinin təmin edilməsi üçün vacibdir: “Təbii ehtiyatlar dünyamızın məhdud resursudur və tükənmək təhlükəsi altındadır.

Davamlılıq və ekoloji maarifləndirmə bu gün vacib məsələlərə çevrilib. Təbii ehtiyatların məhdud olduğunu nəzərə alaraq, bu ehtiyatların gələcək nəsillərə sağlam şəkildə ötürülməsi üçün davamlılıq və ekoloji maarifləndirmə təmin edilməlidir”.



### Davamlılıq nədir?

S.Həsənov qeyd edib ki, davamlılıq təbii ehtiyatlardan gələcək nəsillərin istifadə edə bilməsi üçün onlara təsir etmədən istifadə etmək və qorumaq deməkdir. Bu konsepsiya gələcək nəsillərin bugünkü ehtiyacları ödəmək üçün təbii sərvətləri istehlak edərkən eyni resurslardan faydalana bilməsini təmin etmək məqsədi daşıyır: “Davamlılıq ekoloji, iqtisadi və sosial təsirləri nəzərə alan yanaşma tələb edir.

Bu gün ekoloji problemləri yaradan səbəblərdən biri də tullantıların idarə edilə bilməsidir. Belə ki, tullantıların idarə edilməsi ekoloji maarifləndirmənin bir hissəsidir. Təbiətə zərər vermədən tullantıları nəzarət altında saxlamaq və təkrar emalı təşviq etmək ətraf mühitin çirklənməsinin qarşısını alır. Təkrar emal istifadə olunan materialların təkrar istifadə edilməsini təmin edir və beləliklə, təbii ehtiyatların tükənməsinin qarşısını alır.

Ekoloji maarifləndirmə yaşıl enerji mənbələrindən istifadəni də əhatə edir. Günəş enerjisi və külək enerjisi kimi davamlı enerji mənbələri təbii ehtiyatların qorunması və ətraf mühitə zərər vermədən enerji istehsalı üçün vacibdir. Bu bərpa olunan enerji mənbələri həmçinin qalıq yanacaqlardan istifadəni azaltmaqla iqlim dəyişikliyi ilə mübarizədə effektiv rol oynayır”.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır**

### Yaşıl və dayanıqlı dünya naminə

Ekoloqun sözlərinə görə, gələcək nəsillərin həyat keyfiyyətini təmin etmək üçün ekoloji maarifləndirmə vacibdir. Təmiz enerji resurslarından istifadə və təbii ehtiyatların qorunması səyləri bizə gələcək nəsillərə daha yaşıl və dayanıqlı dünya ərməğan etməyə yardımçıdır: “Ona görə də hər birimiz ekoloji maarifləndirməni artırmaq və ətraf mühiti qorumaq üçün məsuliyyəti öz üzərimizə götürməliyik.

Ekoloji duyarlılığın ən vacib məqamlarından biri isə yaşıl enerji mənbələri və ondan istifadə haqqında maarifləndirmə tədbirlərinin həyata keçirilməsidir. Yaşıl enerji ətraf mühitə zərər verməyən davamlı enerji mənbələrindən əldə edilən enerji növüdür. Qalıq yanacaq kimi ənənəvi enerji mənbələri ətraf mühitə zərərli qazların və tullantıların buraxılmasına səbəb olduğu halda, yaşıl enerji mənbələri ekoloji cəhətdən təmiz şəkildə enerji istehsal edir. Bu enerji mənbələri bərpa olunandır və təbii ehtiyatların tükənməsi riskini minimuma endirir.

Yaşıl enerjinin ən mühüm nümunələrindən biri günəş enerjisidir. Günəş enerjisi təbii və davamlı şəkildə günəş şüalarından elektrik və ya istilik enerjisi əldə etməyə imkan verir. Günəş enerjisi panelləri günəş enerjisini elektrik enerjisinə çevirərək evlərdə və iş yerlərində istifadə etməyə imkan verir. Beləliklə, ətraf mühitə zərər vermədən enerji ehtiyacı ödənilir”.

*Yeganə*

# Diqqət İstanbula!!!

**Rusiya-Ukrayna müharibəsinin həlli istiqamətində dönüş nöqtəsi sayılan İstanbul görüşləri baş tutdu. Düzdür, görüşlər gözlənildiyi kimi mayın 15-də deyil, 16-da reallaşdı. Qeyd edək ki, görüşdən bir neçə gün öncə yayılan məlumatlarda bildirilirdi ki, Ukrayna ilə Rusiya arasında 2022-ci ildən sonra ilk dəfə üz-üzə danışıqlar keçiriləcək.**

## Ukrayna-Rusiya müharibəsi: ya tamam, ya davam...

### 24 saat sonraya qaldı...

Məsələdən belə bəlli oldu ki, görüşün vaxtının uzanması Ukrayna nümayəndə heyəti ilə bağlı olub. Xatırladaq ki, İstanbulda nəzərdə tutulan görüşdən öncə Prezident Rəcəb Tayyib Ərdoğan Ukrayna Prezidenti Vladimir Zelenskini Ankarada qəbul edib. Türkiyənin "Milliyyət" qəzeti xəbər verir ki, mətbuata qapalı keçirilən görüşdə milli müdafiə naziri Yaşar Gülər, MİT direktoru İbrahim Kalın və prezidentin xarici siyasət və təhlükəsizlik üzrə baş müşaviri Akif Çağatay Kılıç da iştirak edib. Prezident Ərdoğan və Zelenski arasında baş tutan ikitərəfli görüşdən sonra nümayəndə heyətləri arasında iş yeməyi verilib.

Mayın 15-də saat 5 radələrində isə Türkiyə KİV-i nəzərdə tutulan görüşlə bağlı daha bir məlumat yaydı - adı çəkilməyən yüksək rütbəli Ukrayna rəsmisinə istinad bildirildi ki, Kiyevi təmsil edən nümayəndə heyəti prezident Zelenskidən təlimatlar gözləyir. "Prezident qərar verərsə, nümayəndə heyəti orada olacaq" deyə rəsmi AFP-yə bildirib. O əlavə edib ki, cümə axşamı danışıqların keçirilməsi "real deyil", lakin qərar Zelenski tərəfindən prezident Rəcəb Tayyib Ərdoğanla aparılan danışıqlardan sonra veriləcək.



Beləliklə, İstanbul görüşlərinə mayın 16-da start verildi. Qeyd edək ki, görüşlərin formatları da dəyişmiş kimi görsənirdi - gözlənildiyi kimi, Ukrayna və Rusiya nümayəndə heyətləri üzüzə müzakirə aparmadılar. Bunun əksinə, iki mərhələdə üçtərəfli görüş baş tutdu. Birinci mərhələdə ABŞ-Türkiyə-Ukrayna görüşü nəzərdə tutulmuşdu.

### Yeni və köhnə şərtlər...

Xatırladaq ki, görüşdən öncə verilən bəyanatlardan bəlli olurdu ki, müzakirələr heç də sakit tonda getməyəcək - Türkiyə mətbuatı yazdı ki, Kiyev təhlükəsizlik təminatları, eləcə də ölkənin ərazi bütövlüyü və suverenliyinin tam bərpası tələblərinə üstünlük verir. Ukraynanın NATO-ya dəvət edilməsini və ya təhlükəsizlik zəmanətləri çərçivəsində NATO-nun himayəsi altına alınmasını gözləyən Kiyev ölkəsində Avropa sülhməramlı qüvvələrinin yerləşdirilməsini də arzulayır. Hətta yayılan informasiyalara görə, Kiyevin şərtlərinə Ukraynanı nüvə silahı ilə təmin etmək kimi bir növ çəkindirmə paketi də daxil olub. Bundan başqa, Ukrayna Krım, Donetsk, Luqansk, Zaporojye və Xersonun Rusiyanın nəzarətindən çıxmasını, Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinə qayıtmasını tələb edirdi.



Rəsmi Moskvanın ən əsas şərtləri arasında isə Ukraynanın bloklara qoşulmaması, nüvə silahının verilməsi məsələsinin müzakirə edilməməsi, tərksilah olunması, denazifikasiyası, Ukraynada rusdilli vətəndaşların hüquq, azadlıq və mənafelərinə tam təminat verilməsi, ilhaq edilmiş Krım, Donetsk, Luqansk, Zaporojye və Xerson bölgələrinin Rusiya əraziləri kimi tanınması" daxil idi. Şərtlərə əsasən, Moskva böhran aradan qaldırıldıqdan sonra Ukrayna və Avropa ilə tədricən mehriban qonşuluq münasibətləri qurmağa başlamağı və bundan sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin, Qərb və Avropa dövlətlərinin, qitədəki bütün dövlətlərin maraqlarını nəzərə alan "Avrasiya təhlükəsizlik sistemi" yaratmağı təklif edir.

Qeyd edək ki, Rusiya 2022-ci ildə İstanbulda keçirilən danışıqların mətninin Ukrayna ilə danışıqlarda əsas götürülməsini istəyir. Moskva münaqişəni dondurmaq deyil, ona birdəfəlik son qoymaq niyyətini vurğulayaraq, Ukrayna qoşunlarının ilhaq edilmiş Donetsk, Luqansk, Zaporojye və Xerson əyalətlərinin inzibati sərhədlərindən çıxarılmasını tələb edir.

### Ciddi və peşəkar iş...

Danışıqlardan öncə Rusiya prezidentinin müşaviri və İstanbulda danışıqlarda iştirak edən Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski verdiyi yazılı açıqlamada ölkə başçısının tapşırığı ilə İstanbula gəldiklərini bildirib və "İstanbulda ciddi və peşəkarcasına işləmək niyyətindəyik" deyib. Medinski Rusiya tərəfinin danışıqlardakı məqsədinə də toxunaraq, "Putinin təklif etdiyi birbaşa danışıqların məqsədi münaqişənin əsas səbəblərini aradan qaldıraraq uzunmüddətli və davamlı sülhə nail olmaqdır" kimi fikirlər səsləndirib. Vladimir Medinski daha sonra İstanbuldakı Rusiya Baş Konsulluğunun binası qarşısında mətbuata açıqlama verib: "Biz danışıqlara 2022-ci ildə İstanbulda Ukrayna tərəfindən pozulmuş sülh danışıqlarının davamı kimi baxırıq. Nümayəndə heyətimiz prezidentin fərmanı ilə təsdiqlənib və danışıqları davam etdirmək üçün tam səlahiyyətə malikdir. Nümayəndə heyətimiz konstruktiv iş aparmaq, mümkün həll yolları və ümumi zəmin tapmaq niyyətindədir. Birbaşa danışıqlarda məqsədimiz Ukrayna ilə böhranın kökündən həll etmək və uzunmüddətli sülhə tezliklə nail olmaqdır."



### Birinci görüş 1 saat çəkdi...

Vurğulandığı kimi, ilk raundda ABŞ, Ukrayna və Türkiyə nümayəndə heyətləri görüşüb. "Milliyyət"in məlumatına görə, Dolmabağça Sarayında baş tutan və 1 saat davam edən görüşdə ABŞ-ı ölkənin Dövlət katibi Marko Rubio, ABŞ-ın Ankaradakı səfiri Tom Barak və ABŞ prezidentinin Ukrayna üzrə xüsusi nümayəndəsi Keyt Kelloq təmsil edib. Ukrayna nümayəndə heyətinə isə Ukrayna Prezidentinin Aparatının rəhbəri Andrey Yermak, xarici işlər naziri Andriy Sibiqa və müdafiə naziri Rustem Umerov daxil olub. Birinci görüş başa çatdıqdan sonra Ukrayna Prezident Aparatının rəhbəri Andriy Yermak öz Teleqram hesabında danışıqlarla bağlı məlumat paylaşıb. Görüşlə bağlı detalları bölüşməyən Yermak bildirib ki, Ukrayna nümayəndə heyəti İstanbulda ABŞ Prezidenti Donald Trampın Ukrayna və Rusiya üzrə xüsusi nümayəndəsi Keyt Kelloq, Böyük Britaniyanın milli təhlükəsizlik müşaviri Conatan Pauell, Fransa prezidentinin müşaviri səfir Emmanuel Bonne və Almaniya Xarici İşlər Nazirliyinin rəsmisi Günter Sautter ilə görüşüb: "Ukrayna daimi, qeyd-şərtsiz atəşkəsə və sülhə hazırdır. Biz də ən yüksək səviyyədə görüşlərə və danışıqlara hazırıq. Ukrayna nümayəndə heyəti bu gün qeyd-şərtsiz atəşkəsə nail olmaq üçün İstanbuldadır. Bu, bizim prioritetimizdir. Digər məsələ isə, Ukrayna prezidenti ilə müəyyən səbəblərdən Türkiyəyə gələ bilməyən Rusiya prezidentinin təkbətək görüşməsidir".



### İkinci görüş: vasitəçilər iş başında...

İstanbulda keçirilən ikinci görüş öncəsi yayılan məlumata görə, ABŞ-ı təmsil edənlər arasında Dövlət Departamentinin Siyasi Planlaşdırma direktoru Maykl Enton da olub. Görüşdən öncə Vladimir Medinski ABŞ nümayəndələri ilə görüşüb. Kremlin sözçüsü Dmitri Peskov isə İstanbuldakı danışıqları izlədiklərini söyləyib və prezidentə daimi hesabatlar verildiyini bildirib.

Görüşlərin ikinci raundu Türkiyənin xarici işlər naziri Hakan Fidanın çıxışı ilə başlayıb. Nazir Fidan bildirib ki, biz müharibəni bitirməyə çalışırıq": "Türkiyə sülh yolunda bütün səylərinizi dəstəkləyəcək".

"Milliyyət"in xəbərinə görə, nazir deyib ki, 2022-ci ilin mart ayından bu yana ilk dəfə belə bir görüş baş tutur və Türkiyə hər iki tərəfi eyni masada görməkdən məmnundur. O qeyd edib ki, qarşıda iki yol var - biri sülhə, digəri isə daha böyük dağıntılara aparır və tərəflər hansı yolu seçəcəklərinə özləri qərar verəcəklər. Fidan atəşkəsin tezliklə əldə edilməsinin zəruriliyini vurğulayıb və qeyd edib ki, Rusiya ilə Ukraynanın həm ABŞ Prezidenti Donald Trampın, həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sülh çağırışlarına diqqət yetirməsi önəmli göstəricidir. Türkiyə XİN rəhbəri həmçinin əlavə edib ki, bu görüş gələcəkdə Rusiya və Ukrayna liderləri arasında baş tuta biləcək birbaşa görüşün əsasını qoya bilər.

Türkiyənin xarici işlər naziri Hakan Fidan Rusiya və Ukrayna heyətləri arasında İstanbulda keçirilən görüşün nəticələrini açıqlayıb. O, bu barədə "X" hesabında yazıb. "Bu gün dünya sülhü üçün mühüm bir gün idi. Gərgin diplomatik səylər nəticəsində Rusiya və Ukrayna nümayəndə heyətləri Türkiyənin vasitəçiliyi ilə İstanbulda görüş keçirib. Görüşün nəticəsi olaraq etimadın möhkəmləndirilməsi məqsədilə hər ölkədən min nəfərin mübadiləsi barədə razılığa gəliblər. Onlar, həmçinin atəşkəs əldə etməyə imkan verəcək şərtləri yazılı şəkildə qarşı tərəflə bölüşməyə razılaşıblar. Tərəflər yenidən görüşmək barədə də prinsipial razılığa gəliblər. Türkiyə olaraq Rusiya ilə Ukrayna arasında davamlı sülhün əldə olunması üçün hər cür səy göstərməyə davam edəcəyik", - o bildirib.

***P.İSMAYILOV***

# Hindistandan qeyri-humanist davranış...

## Dehli münaqişəni bəhanə edərək İslamabadı su böhranı ilə üz-üzə qoyub

Aprelin 22-dən başlayan Hindistan ilə Pakistan arasındakı gərginlik səngisə də, hələ bitməyib. Xatırladaq ki, iki ölkə arasındakı mövcud atəşkəs rejiminin müddəti mayın 18-dək uzadılıb. Bu barədə Pakistanın xarici işlər naziri İshaq Dar məlumat verib - o bildirib ki, tərəflər arasında aparılan danışıqlardan sonra atəşkəsin uzadılması barədə razılıq əldə olunub. "Razılığa gəldik ki, atəşkəs mayın 18-dək davam edəcək", - deyə o bildirib.

**Hindistan Pakistana su vermir...**

Amma vəziyyət yenidən gərginləşə bilər. Rəsmi Dehlidən səslənən bəyanatlar konstruktiv ruha malik deyil - əksinə, Hindistan bu və ya digər yollarla yeni münaqişə yaratmağa çalışır. Pakistanın sülhpərvər mövqeyinin əksinə olaraq Hindistan radikal yanaşmadan əl çəkmir - xüsusilə, beynəlxalq humanizm prinsiplərinə və qanunların əksinə olaraq Pakistanı su hövzələrindən məhrum etməklə Hindistan müharibənin daha da alovlanması üçün çalışır. Belə ki, Dehli İslamabadla əldə olunan və atəşkəsin müddətinin mayın 18-nə qədər uzadılmasını nəzərdə tutan razılaşmaya baxmayaraq, Pakistanla imzalanmış Hind Suları Müqaviləsinin icrasına qayıtmayacağını bəyan edib. Bu barədə məlumatı Hindistanın xarici işlər naziri Subrahmanyam Cayşhankar açıqlayıb. O suyun verilməməsini belə izah edib: "Hind Suları Müqaviləsi dayandırılıb və transsərhəd terrorizmi qəti və dönməz şəkildə dayandırılana qədər belə qalacaq".

Cayşankar "Hindustan Times"a açıqlamasında bildirib ki, Kəşmir bölgəsi ilə əlaqədar Dehli İslamabadla yalnız "Kəşmirin Pakistan tərəfindən "işğal olunmuş" hissəsində qeyri-qanuni işğal olunmuş Hindistan ərazilərinin azad edilməsini" müzakirə etməyə hazırdır.

XİN başçısının bu açıqlamasının suyun dayandırılması üçün bəhanə olması bütün kontekstlərdən ortadadır - çünki Pakistan dəfələrlə baş verən hadisələrdə iştirakçı olmadığını bəyan edib. Ümumiyyətlə, iki ölkə arasında illərdir davam edən münaqişələr zamanı Hindistan tez-tez bu yola - qeyri-humanist təhdidlərə əl atır.

Xatırladaq ki, 1960-cı ildə Hindistan və Pakistan su ehtiyatlarının bölüşdürülməsini nəzərdə tutan Hind Suları Müqaviləsini imzalayıblar. Razılaşmaya əsasən, İslamabad Hindistan ərazisindən axan Hind çayının özünə və onun qolları olan Çenab və Jelum çaylarına nəzarəti ələ alıb, lakin Hindistan razılaşmaya əsasən, bu sulardan sahələrin suvarılması və ərazidə yaşayan sakinlərinin ehtiyacları üçün istifadə edə bilər. Yeni Dehli Bis, Ravi və Sutlej çayları üzərində tam nəzarəti ələ keçirib. Bu müqaviləyə əsasən, Yeni Dehli və İslamabad məlumat mübadiləsinə razılıq veriblər və bu məqsədlə Daimi İndus Komissiyası yaradılıb.

Hindistan səlahiyyətliləri daha əvvəllər də mövcud pay sahibi olan Pakistana suyun çatmamasını təmin etmək üçün qısa, orta və uzunmüddətli tədbirlər üzərində çalışdıqlarını bildirmişdilər. Bunun qarşılığında isə İslamabad bildirmişdi ki, Hind Suları Müqaviləsinə əsasən Pakistana məxsus su axınının dayandırılması və ya yönləndirilməsi, aşağı sahilyanı dövlətlərin hüquqlarını qəsb etmək cəhdi müharibə aktı hesab olunacaq.

**Baş nazir xəbərdarlıq etdi: Bu, "qırmızı xətt" olacaq...**



Münaqişənin tənzimlənməsi, müharibə fazasına adlamaması üçün isə beynəlxalq hərəkətlənmə diqqətti cəlb edib. Hələ aprel ayında ilk toqquşmalar zamanı bütün aparıcı beynəlxalq təşkilatlar və dövlətlər atəşkəslə bağlı çağırışlar etmişdi. Xüsusilə ABŞ prosesdə aktiv rol almışdı. Hətta bir neçə gün öncə ABŞ Prezidenti Donald Tramp Hindistan-Pakistan münaqişəsi ilə bağlı danışarkən bildirmişdi ki, rəhbərlik etdiyi administrasiya Hindistan və Pakistan arasında tam və dərhal atəşkəs əldə etməyə kömək etdi: "Məncə daimi atəşkəs, çoxlu nüvə silahı olan iki xalqın təhlükəli münaqişəsinə son qoydu". Donald Tramp əlavə etmişdi ki, ABŞ hazırda Hindistanla ticarət sazişi üzrə danışıqlar aparır və yaxın gələcəkdə bu cür danışıqlara Pakistanla da başlamağı planlaşdırır.

Hindistanın XİN rəhbəri Cayşankar isə Hindistanın Pakistanla münasibətlərinin və onunla mümkün razılaşmaların "yalnız ikitərəfli xarakter daşıyacağını" deyib. "Hindustan Times" qeyd edir ki, Cayşankarın bu açıqlaması ABŞ prezidenti Donald Trampın Kəşmir məsələsində iki ölkə arasında vasitəçilik etmək təklifinə cavab kimi qiymətləndirilir.

Pakistan Hindistan tərəfindən aparılan bu qeyri-adekvat davranışı cavabsız qoymayacaq. Baş nazir Şahbaz Şərif Hind Suları Müqaviləsini dayandıran Hindistana Pakistan ərazisinə su gətirən çayların axınının qarşısını almaq

cəhdləri ilə bağlı sərt xəbərdarlıq edib.

"Dawn"un yaydığı məlumata görə, Baş nazir bildirib ki, "Əgər siz su təchizatını dayandırsanız, bu, "qırmızı xətt" olacaq. Bizim su əldə etmək hüququmuz var. Cəsur və igid qoşunlar bunun üçün döyüşəcək".

O, Neelum-Jhelum bəndinə hücumda Hindistanı günahlandırıb, lakin Pakistanın insidentdə təmkin nümayiş etdirdiyini qeyd edib. Eyni zamanda, Şərif Pakistan hərbçilərinin Bağlihar bəndini və Hindistanın digər hidrotexniki qurğularını dağıtmağa qadir olduğunu bəyan edib.

**Pakistandan ultimatum: ... hazırıq**

Baş nazir Kəşmir məsələsinə də toxunub. O bildirib ki, Kəşmir məsələsi BMT-nin qətnamələri çərçivəsində həll edilməli, daha sonra ticarət məsələləri üzrə danışıqlar aparılmalıdır. Şərif xatırladıb ki, İslamabad Kəşmirin Pahalqam şəhərində törədilən terror aktı ilə bağlı hərtərəfli təhqiqat aparılmasını tələb edib və insidentin şərtlərini aydınlaşdırmaq üçün əməkdaşlığa razılaşıb, lakin Hindistan zərbə endirməyə üstünlük verib.

"Biz həm müharibəyə, həm də sülhə hazırıq. Seçim sizindir", - baş nazir Hindistan tərəfinə müraciət edərək deyib.

**Hindistandan nüvə şantajı...**

Bir sıra Qərb siyasətçiləri hələ 2019-cu ildə Pakistan ilə Hindistan arasında yeni qarşıdurma yaşanan zaman 2025-ci il üçün yeni və daha ağır bir təmasla bağlı proqnozlar səsləndirmişdilər. Hətta 2019-cu ildə aparılan araşdırmada beynəlxalq ekspertlər qrupu 2025-ci ildə Hindistan ilə Pakistan arasında nüvə müharibəsi haqqında hipotetik ssenari hazırlamışdı. Böhran kəskinləşdikcə artıq nüvə təhdidi də ortaya çıxmağa başlayır. Qeyd edək ki, bununla bağlı ilk açıqlamanı da Hindistanın Baş naziri Narendra Modi deyib. O, qəfildən "Hindistan nüvə təhlükələrinə boyun əyməyəcək" ifadəsini işlədib - halbuki ötən 1 aya yaxın zamanda rəsmi İslamabaddan nüvə ilə bağlı fikir eşidilməyib. Deməli ki, Hindistan artıq bu məsələni ictimai rəyə ötürməyə çalışır - başqa sözlə, Dehli nüvə ritorikası ilə şantaj siyasətinə əl atır. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (Sipri) analitik mərkəzinin məlumatına görə, Hindistan və Pakistanın hər birində 170-ə yaxın nüvə başlığı var. ABŞ-ın Albani Universitetinin təhlükəsizlik üzrə eksperti Kristofer Klarinin sözlərinə görə, Hindistan və Pakistanın yerləşdirilmiş nüvə arsenallarının əsas hissəsi quruda yerləşən raket qüvvələridir - baxmayaraq ki, hər iki ölkə nüvə üçlüyü - quru, hava və dəniz vasitəsilə nüvə başlıqlarını çatdırmaq qabiliyyətinə malikdirlər.

***SADİQ***

# Berbok Baş Assambleyanın yeni sədri olarsa...

**Azərbaycanda da yaxşı tanınan Almaniyanın sabiq xarici işlər naziri Annalena Berbok Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının sədri vəzifəsinə namizədliyini irəli sürərək ilk çıxışını edib. Sabiq nazirin çıxışı ənənəvi notlar üzərində qurulub. Belə ki, o, bir sıra vədlər verib. Xarici nəşrlərin məlumatına görə, A.Berbok çıxışında bu vəzifəyə seçiləcəyi təqdirdə BMT-yə üzv olan bütün ölkələrə səmimi vasitəçi və birləşdirici şəxs kimi xidmət göstərməyə hazır olduğunu bəyan edib. Berbokun gündəliyində davamlı inkişaf məqsədlərinin irəlilədilməsi, gender bərabərliyinin təşviqi və iqlim dəyişikliyi ilə mübarizə prioritet istiqamətlər kimi təqdim olunub.**

## Daha çox rəmzi xarakter daşıyan qurum

BMT üzvü olan bütün dövlətlərdən ibarət Baş Assambleya rəmzi xarakter daşıyan bir qurumdur. Onun BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına bu və ya digər məsələlərlə bağlı tövsiyələr vermək səlahiyyəti var. Baş Assambleyanın qərarları üzv dövlətlər üçün məcburi deyil. Assambleyanın hər il növbəti sessiyası keçirilir. Qurumun nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə yaradılıb. Nizamnaməyə uyğun olaraq Baş Assambleyanın funksiya və səlahiyyətləri aşağıdakılardan ibarətdir:

1. Beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək, o cümlədən silahlanmanı tənzimləmək və dayandırmaq sahəsində əməkdaşlıq prinsiplərini formalaşdırmaq;
2. Beynəlxalq sülhə və təhlükəsizliyə aid olan hər hansı bir məsələni və yaxud mübahisəli vəziyyəti müzakirə etmək (əgər məsələyə baxılması səlahiyyəti Təhlükəsizlik Şurasında deyildirsə);
3. Nizamnamə çərçivəsində və BMT-nin səlahiyyətlərinə və funksiyasına aid olub və onun hər hansı bir bölməsinə uyğun gələn məsələləri müzakirə etmək və tövsiyələr vermək;
4. Beynəlxalq siyasi əməkdaşlığa köməklik etmək məqsədi ilə tədqiqatlar aparmaq və tövsiyələr hazırlamaq, insanların əsas azadlıq və hüquqlarını həyata keçirmək üçün beynəlxalq hüquq normalarını inkişaf etdirmək, beynəlxalq iqtisadi, sosial, mədəni, təhsil və səhiyyədə əməkdaşlığa köməklik göstərmək;
5. Hər hansı bir vəziyyətin başvermə səbəblərindən və millətlərə ziyan verməsindən asılı olmayaraq onun sülh yolu ilə tənzimlənməsi üçün təkliflər irəli sürmək;
6. Birləşmiş Millətlər Təşkilatının, Təhlükəsizlik Şurasının və digər orqanların məruzələrini almaq və baxmaq;
7. Birləşmiş Millətlər Təşkilatının büdcəsinə baxmaq və təsdiq etmək, ayrı-ayrı üzvlərin üzvlük haqqını müəyyən etmək;
8. Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın daimi olmayan üzvlərini, qəyyumluq şurası üzrə üzvləri seçmək, Təhlükəsizlik Şurası ilə birlikdə Beynəlxalq Məhkəmə hakimlərini seçmək və Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş Katibi təyin etmək.

Baş Assambleyanın 1950-ci ildə "Sülh naminə birlik" Qətnaməsini qəbul etməsi onun rolunu nisbətən artırıb. Bu qətnamə fövqəladə hallarda Təhlükəsizlik Şurası fəaliyyət göstərə bilmədikdə kollektiv tədbirlər görmək, hətta hərbi güc tətbiq etmək üçün Assambleyaya təcili çağrılma səlahiyyəti verir.

Baş Assambleyanın tarixində, necə deyərlər, nailiyyətlər və uğursuzluqlar bir-birini izləyib. Assambleyanın fəal dəstəyi, Baş Katibliyin himayəçiliyi ilə Atom enerjisi üzrə Beynəlxalq Agentlik (MAQATE) təsis edilib. Qurumun əsas töhfəsi 1948-ci ildə insan hüquqları haqqında Bəyannamənin və soyqırımı haqqında Konvensiyanın qəbul edilməsidir. Baş Assambleya silahlanmaya nəzarət üzrə 3 əsas saziş qəbul edib. Bunlar aşağıdakılardır: 1966-cı ildə Kosmos məkan haqqında, 1968-ci ildə Nüvə silahının yayılması haqqında və 1971-ci ildə Dənizin təkindən istifadə olunması haqqında müqavilələr.

Bununla belə, Baş Assambleya SSRİ-nin 1956-cı ildə Macarıstana və 1967-ci ildə Çexoslovakiyaya müdaxiləsini dayandırmaq üçün səmərəli fəaliyyət göstərməyib. Qurum Vyetnamda gedən müharibəyə təsir etmək iqtidarında olmayıb. Baş Assambleya həmçinin Yaxın Şərq coğrafiyasında zaman-zaman yaşanan böhranlardan kənarda qalıb. "Bir dövlət - bir səs" prinsipinin bütün üzv dövlətlər tərəfindən qəbul edilməməsi qurumun ən böyük uğursuzluğu sayıla bilər. BMT büdcəsinə daha çox vəsait ödəyən dövlətlər təşkilatın sıralarındakı kiçik dövlətlərlə eyni hüquqları bölüşmək istəmirlər. Baş Assambleya, bütövlükdə BMT hələlik bu məsələdə "qızıl qaydanı" tapa bilməyib. Belə vəziyyət isə dünyada BMT-dən narazılıqları artırır və islahatlar aparılmasının zəruriliyini bütün ciddiliyi ilə gündəmə gətirir.



## Berbok vədlərində nə dərəcədə səmimidir?

Berbok tərəfindən səsləndirilən vədlər, əlbəttə ki, cəlbedicidir. Ancaq əsas sual belədir: Almaniyadan olan siyasətçi vədlərində nə dərəcədə səmimidir və o, Baş Assambleyasının sədri vəzifəsinə seçiləcəyi təqdirdə dünyada BMT-yə inamın bərpasına, ümumiyyətlə qurumun funksionallığına hansısa bir təsir göstərə biləcəkmi? Bəri başdan deyək ki, A.Berbokun Almaniyanın xarici işlər naziri postunda fəaliyyəti nikbinlik üçün heç bir əsas vermir. Xanım siyasətçi çıxışında "səmimi vasitəçi" və "birləşdirici fiqur" kimi çıxış edəcəyini bildirib. Ancaq aşağıda diqqət çəkmək istədiyimiz təkcə iki fakt onun səmimiyyətini şübhə altına almağa əsas verir. Hər iki fakt diqqətli oxucularımıza da yaxşı bəllidir. Onun 2023-cü ilin sonlarında Ermənistana və Azərbaycana baş tutan səfərlərini xatırlayaq. Bu səfərlərin hər iki ölkədə yüksək həssaslıqla izlənildiyi Berboka da yaxşı məlum idi. Belə həssas dönəmdə Almaniya kimi nüfuzlu dövlətin xarici siyasətinə məsul olan bir şəxsin birləşdirici missiyadan çıxış etməsinə həqiqətən böyük ehtiyac var idi. Berbok səmimilik göstərib bunu etsəydi, tənzimləmə prosesinə sanballı töhfə vermiş olardı. Bəs xanım siyasətçi nə etdi? O, iki ölkəyə səfərləri çərçivəsində bölücülüyə, ayırıcı xətlər yaratmağa əsas ola biləcək davranışlar ortaya qoydu. Statusunu nəzərə aldıqda siyasətçinin Azərbaycanla Ermənistan arasında onillikləri əhatə edən münaqişənin tarixi və postmüharibə dövrünün reallıqları barədə təfərrüatları incəliyinə qədər bilməsinə heç bir şübhə yeri qalmır. Berbok tənzimləmə prosesinin mühüm mərhələsində obyektivliyin gözlənilməsi zərurətini, əlbəttə ki, yaxşı anlayırdı. Bununla belə, təcrübəli siyasətçi Ermənistanda olarkən sərhəd bölgəsinə yaxın ərazidə yerləşən Arazdəyən kəndinə getdi, Qarabağdan Ermənistana könüllü surətdə köçmüş ermənilərlə görüşdü, burada müəyyən təhrikedici fikirlər səsləndirdi. O, hətta Bakıda keçirilən birgə mətbuat konfransında Qarabağdakı bəzi şəhərlərimizin adlarını vaxtilə qanunsuz rejimin adlandırdığı formada səsləndirdi...

Təbii ki, Bakıda Berbokun "səhvləri" bağışlanmadı. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ona etirazını bildirdi. Bu da hamısı deyil. Berbok mətbuat konfransında yalanlarında bir qədər də irəli getdi. Belə ki, xanım nazir Ermənistanda Qarabağdan köçmüş ermənilərlə görüşdüyü təqdirdə, Azərbaycana səfəri zamanı azərbaycanlı köçkün və qaçqınlarla görüşüb-görüşmədiyi barədə jurnalistlərin suallarına cavab verməkdən yayınmağa çalışdı. C.Bayramovun müdaxiləsindən sonra isə daha böyük yalana əl atdı - Bakıda Ermənistandan köçmüş şəxslərlə də görüş keçirdiyini bildirdi. Berbok auditoriyaya açıq-aşkar hörmətsizlik edirdi - Bakıda Almaniyadan olan nazirin iştirakı ilə belə bir görüş keçirilməmişdi. Sadəcə, Berbok "Mənzərə" restoranında vətəndaş cəmiyyətinin bəzi nümayəndələri ilə bir araya gəlmişdi...

A.Berbokun səmimiyyətinə şübhələr yaradan ikinci hadisə Azərbaycanın 2024-cü ilin noyabrında ev sahibliyi etdiyi COP29 konfransında yaşandı. Konfransa yüksək səviyyədə ev sahibliyi etməsi Azərbaycanın iqlim çağırışlarına həssas yanaşmasının təsdiqidir. Mahiyyət etibarı ilə iqlim çağırışları Berboka daha yaxındır. Çünki onun siyasi karyerası Almaniyada İttifaq90/Yaşıllar Partiyası ilə bilavasitə bağlıdır. Lakin o, konfans çərçivəsində iqlim məsələlərini arxa plana keçirərək Azərbaycanla bağlı aidiyyatsız və əsassız insan haqları mövzusunda çıxış etdi, tədbirin əsas məqsədindən kənar fəaliyyətlər sərgilədi. Bütün bunlardan sonra onun verdiyi vədlərə necə inanmaq olar? Ümumiyyətə, Berbok Baş Assambleyanın sədri seçiləcəkmi və buna layiqdirmi?

***Mübariz ABDULLAYEV***

# 5 faiz təklifi ətrafında gərgin mübahisə...

## NATO-da çatlar yarana bilər?

Yaxın zamanda NATO-da daxili ziddiyyətlərin gərginləşməsinin şahidi ola bilərik. Belə ki, ABŞ Dövlət katibi Marko Rubio "Foxnews" -a müsahibəsində bildirib ki, NATO-nun iyunun 24-25 -də Haaqada keçiriləcək sammitində müdafiə xərclərinin artırılması ilə bağlı məsələ xüsusi müzakirə predmeti olacaq. Onun sözlərinə görə, alyansın üzv ölkələrinin qarşıdakı onillikdə müdafiəyəyə ÜDM-in 5 faiz dəyərində vəsait xərcləməsi üçün razılıq əldə oluna bilər. "Altı həftə sonra sammit keçiriləcək. Bu sammitdə NATO-nun demək olar ki, hər bir üzvünün müdafiə xərcləri 2 faiz və ya ondan yuxarı olacaq, lakin daha önəmlisi, onların əksəriyyətinin xərci 4 faizdən artıq olacaq. Növbəti onillikdə bu rəqəmi 5 faizə çatdırmaq barədə müzakirələr aparılacaq", - deyə Rubio bildirib.

Xatırladaq ki, ABŞ-ın Dövlət katibi aprelin 4-də NATO xarici işlər nazirlərinin Brüsseldə keçirilən görüşündən əvvəl jurnalistlərə açıqlamasında bəyan etmişdi ki, hər bir NATO üzvü alyansın ərazisini müdafiə etmək və istənilən təhdidlərin qarşısını almaq üçün müdafiə xərclərini artırmalıdır. "Bloomberg" -in məlumatında qeyd olunur ki, iyunun 24-25 -də NATO-nun Haaqada keçiriləcək növbəti sammitində müzakirələr zamanı hərbi xərclərin artırılması və müdafiə sənayesinin genişləndirilməsinə xüsusi diqqət yetiriləcək.

### Tramp ultimatum verib

Almaniyanın "Şpiegel" qəzetinin məlumatına görə, Tramp alyansın iyunun 24-25 -dəki sammitində iştirak etməyə bilər. Nəşr qeyd edir ki, bu barədə ABŞ-ın NATO-dakı yeni səfiri Metyu Uitaker alyansın səfirlərinə xəbərdarlıq edib. Diplomat, həmçinin Tramp administrasiyasının üzv dövlətlərin ÜDM-in 5 faizini müdafiəyə xərcləməyi öhdəsinə götürməsi tələbində israrlı olduğunu bildirib. Qeyd edək ki, Tramp Ağ Evə qayıtdıqdan sonra dəfələrlə öz çıxışlarında bəyan edib ki, Vaşinqton artıq Avropanın təhlükəsizliyinə vəsait ayırmaqda maraqlı olmayacaq və NATO-nun hər bir üzv ölkəsi alyansın müdafiə xərclərində ciddi öhdəlik daşımalıdır. Tramp martın 7-dəki çıxışında xəbərdarlıq edib ki, NATO ölkələri müdafiəyə lazımi olan vəsaiti ayırmasalar, ABŞ onları müdafiə etməyəcək.

### NATO-nun 2024-ci il üçün müdafiə xərcləri

NATO-ya üzv ölkələr 2024-cü ildə müdafiəyə1,3 trilyon dollardan çox vəsait xərcləyiblər. Alyansın illik hesabatında bildirilir ki, bu, 2023-cü ildəkindən 123 milyard dollar çoxdur. 2024-cü ildə alyans ölkələrinin hərbi xərcləri rekord həddə - 1 trilyon 303 milyard dollara yüksəlib. Bunun 818 milyard dollarını (64 faizi) ABŞ xərcləyib. NATO -nun Avropa üzvləri və Kanadanın payı 2023-cü illə müqayisədə 19,4 faiz artaraq 468 milyard dollar təşkil edib. 2023-cü ildə alyansın müdafiə xərcləri 1,180 trilyon dolları keçib. 2024-cü ildə bu rəqəm 123 milyard dollar artıb.

### Bəzi üzv ölkələr 2 faizə razılaşıb

NATO-nun yeni hesabatına görə, üzv dövlətlərin əksəriyyəti müdafiə xərclərini artıraraq ÜDM-in ən azı 2 faizini orduya yönəltmək öhdəliyini yerinə yetirib. Sözsüz ki, Trampın təzyiqləri və xəbərdarlıqları bu artımda mühüm rol oynayıb. Qərb KİV-lərinin məlumatına görə, NATO-nun 22 üzv ölkəsi ÜDM-nin 2 faizini müdafiəyə ayırıblar - Polşa müdafiə xərclərinə ÜDM-in 4,07 faizini, Estoniya, Latviya, ABŞ, Litva və Yunanıstan müdafiə xərclərinə ÜDM-in 3-4 faiz arası ayırıb. Türkiyə isə bu il müdafiəyə ÜDM-in 2,09 faizini ayıraraq hədəfi keçən ölkələr sırasına daxil olub. Almaniya, Fransa, Böyük Britaniya, Danimarka, Norveç, İsveç, Finlandiya, Çexiya, Rumıniya, Macarıstan və Niderland, həmçinin Bolqarıstan və Slovakiyanın bu il üçün müdafiə xərcləri 2 faiz hədəfini keçib. Amma Monteneqro, İtaliya, Portuqaliya, Belçika, Lüksemburq, Sloveniya və Kanadanın müdafiə xərcləri 2 faiz hədəfinə çatmayıb. İspaniya isə müdafiə xərclərinə ÜDM-in cəmi 1,24 faizini ayırmaqla siyahının sonunda qərarlaşıb.

### Rutte xərcləri 3,5 faizədək artırmağı təklif edir

Mayın 2-də NATO-nun Baş katibi Mark Rutte alyansın üzv ölkələrinə hərbi xərcləri ümumi daxili məhsul həcminin 3,5 faizinədək artırmağı, müdafiə ilə bağlı digər məsələlərə isə əlavə olaraq ÜDM-nin 1,5 faizini ayırmağı təklif edir. Çox güman ki, NATO-nun Haaqa sammitində Rüttenin təklifi ətrafında da geniş fikir mübadiləsi aparılacaq. Baş katibin təklifi bəzi üzv ölkələr üçün münasib görünə bilər.

### 5 faiz ətrafında ciddi mübahisə

Almaniya XİN-in yeni rəhbəri Johann Vadeful "Reuters"ə açıqlamasında bildirib ki, Almaniya ABŞ-ın NATO ölkələrinin müdafiə xərclərini 10 ildə ÜDM-in 5 faizə çatdırmaq məqsədini dəstəkləyir. Vadeful Almaniyanın planlarını Antalyada Marko Rubio ilə görüşdən sonra açıqlayıb. Vadeful əlavə edib ki, Almaniya 2025-ci ildən etibarən müdafiə xərclərini ildə 60 milyard avrodan çox artırmağı planlaşdırır. Lakin NATO-nun bir çox üzv ölkələri Trampın 5 faiz təklifi ilə razılaşmırlar. "Reuters" qeyd edir ki, alyansın bəzi üzv ölkələrinin rəhbərləri müdafiə xərclərinin artırılmasına razılıq versə də, ABŞ prezidentinin ÜDM-in 5 faizi təklifini qəbul etmirlər - onlar bəyan edirlər ki, bu, iqtisadi cəhətdən qeyri-mümkündür.

Mövzu ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, NATO-nun Avropadakı bəzi üzv ölkələrinin sosial-iqtisadi problemləri buna imkan vermir: "Bu məsələ ətrafında ziddiyyətlər var. Yaxın aylarda bu ziddiyyətlər daha da dərinləşə bilər. NATO-nun bəzi üzv ölkələri Trampın bu təklifini yerinə yetirmək istəmirlər. Böyük ehtimalla, bu, alyans daxilində çox ciddi problemlər yaradacaq. NATO-nun Avropadakı bəzi üzv ölkələrində çox ağır sosial-iqtisadi problemlər var. Bu problemlər həmin ölkələrə müdafiə xərclərini 5 faizə qədər artırmağa imkan vermir. İspaniya və Portuqaliyanı buna




misal çəkmək olar". Ekspert əlavə edib ki, bəzi Avropa ölkələrində müdafiə xərclərinin ÜDM-in 5 faizinə qədər artırılmasına ehtiyac yoxdur. "Misal üçün Rusiya İspaniya, İtaliya və Portuqaliyanı təhdid edə bilər, amma reallığa baxanda Moskvanın bütövlükdə Avropaya hücum etmək niyyəti yoxdur. Moskvanın heç bu iki ölkəyə əlinin çatması üçün imkanları yoxdur".

### NATO-da çatlar yaranacaq?

"Hazırda Avropa İttifaqında vahid Avropa ordusunun yaradılması ilə bağlı söz-söhbətlər gəzir. Xüsusilə, Almaniya və Fransa bu məsələdə çox israrlıdır. Hər iki ölkənin rəsmiləri bəyan edirlər ki, Aİ öz ordusunu yaratmaqla ABŞ-ın təzyiqlərindən yan keçə bilər. Amma Aİ-nin bəzi ölkələri buna qarşı çıxır,"- deyə İ.Vəlizadə vurğulayıb ki, belə bir ordunun yaradılması üçün çox uzun zaman lazım olacaq: "Bu ideyanı qısa müddət ərzində həyata keçirmək çox çətin olacaq. Bu istiqamətdə tələsik addımların atılması alyans daxilində problemlərin yaranmasına gətirib çıxara bilər. O ki qaldı Trampın təklifinin NATO-da parçalanmalar yaradacağına, bəli, çox gərgin mübahisələr olacaq və ziddiyyətli məqamlar üzə çıxacaq, ancaq alyans öz daxili sabitliyini qoruyub saxlayacaq,".

***Yunis ABDULLAYEV***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# ŞƏNBƏ ÜÇÜN NƏZM







*Nəriman Həsənzadə*

Sənə - sənə layiq baxa bilmədim,
Səni - sənə layiq dəfn eləsəm də.
Yerə söykədilər mərmər üzünü,
Qışqırdım dayanın,əl saxladılar
Mən özüm örtərdim evdə üzünü,
Burda,qəbristanda torpaqladılar.

Sən getdin, dəyişdi həyatın özü,
Getdi dadı-tamı,hər şeyi getdi.
Evi bəzərdin ki, gözəl görünsün,
Evimin ən gözəl bəzəyi getdi.

Gedib dost-qohumun qəbri üstünə,
Gül-çiçək qoyurduq ikilikdə biz.
Mən sənsiz ölərəm!
Demişdim sənə,
Hamısı yalanmış,
yaşadım sənsiz...

Sənə sədaqətdi bütün həyatım
Deyərdim,baxardın gülümsəyərək.
Səni qəbristanda qoyub qayıtdım,
Sədaqət şüarım bu imiş demək.

Bu gün qəbristanda gecikib səhər,
Üstünə nur səpir qızıl dan yeri.
Torpaq ot bitirər,ağaç bitirər,
Burda daş bitirir qəbristan yeri.

Bir gözəllik itib duman içində,
Dünya imtahanmış, işləri ovsun.
İlahi,bu qədər insan içində,
Bir insan tapılmır söz demək olsun.

Fikirli qalxıram üzüyuxarı,
Nə qədər yaxınsan, nə qədər uzaq.
Təzə ot göyərib örtür cığırı,
İtirmək istəyir qəbrini torpaq.

Mənsiz darıxardın evdə hər dəfə,
Dözümsüz olmuşdu gecə-gündüzün.
Gedəndə deyirdin tez qayıt evə,
Bəs niyə qayıdıb gəlmirsən özün?!

Gözüm yolda qalıb,qulağım səsdə,
Gedibsən,qalmışam mən
qonaq kimi.
Sən yerin altında, mən yerin üstə,
Biz ayrı düşmüşük kök-budaq kimi.

### Nərdivan

Bu dünya nərdivandı.
Qalxanda mehribandı
Enəndə nə yamandı.
Görüşdük pillələrdə,
Yolun yarısında biz.
O qalxırdı bu dəmdə,
Mən enirdim xəbərsiz.
Onu arzularına
Qaldırıdı nərdivan,
Məni xatirələrə endirirdi.
Bu zaman,
birimiz-günçıxana,
birimiz-günbatana...
Qalxa bilməzdim daha,
Nə o güc, nə o taqət.
O da enə bilməzdi.
Haqlı-haqsız, vermişdi
öz hökmünü təbiət.
Gərək ya düşməyəydi
Bu görüş heç araya.
Ya o əvvəl gələydi,
Ya mən sonra dünyaya.

### Elə dayanırsan

Elə dayanırsan, elə baxırsan,
Elə bil qarşında quru bir daşam.
İpək saçlarını bir vaxt oxşayan
Elə bil hardasa mən olmamışam.

Səni dostlarımla, tanışlarımla,
Mən tanış edərdim nə vaxtsa bir-bir.
İndi özgələri yad ehtiramla,
Deyirlər tanış ol...
Nə qəribədir?!

Yuxuda görərdin nə vaxtsa hər dəm,
Yolumu gözlərdin yollardan uzaq.
Mən sənin yuxundan çıxıb
gəlmişəm,
Bu da bir yuxudur, gəl tanış olaq.

Qoluna girərdim... bu, yadındadır,
gedərdik... yolumuz , arzumuz şərik.
Qolum qollarının lap yanındadır,
toxunsa biz indi üzr istəyirik.

Hayanda oldumsa səhər, ya axşam,
Aradın sən məni, gördün sən məni.
İndi gözlərinin qabağındayam,
Hayanda durum ki,
Görəsən məni?

### Saraya

Mən səni həyatda daşa dəyişdim,
Torpağa dəyişdim, məzara döndün.
Mən öz baharımı qışa dəyişdim,
Çinara dönmüşdün, hasara döndün.

Bir ana bənd imiş bu əbədiyyət,
Duydum buza dönən nəfəsimi də,
Anamı əlimdən alan təbiət
Gözü götürmədi, aldı səni də.
Mən bir xəcalətdən çıxa
bilmədim,
Bu gizli dərdimi açıq desəm də.

### Ürəyim ananı istəyir, qızım

Ürəyim ananı istəyir qızım,
Sən yaşa, dünyada qəmsiz kədər-
siz,
Bir səs qulağıma döz deyir, qızım,
Mən dözdüm, yaş ötdü
məndən xəbərsiz.

Qaşlarım qaradı, saçlarım ağdı,
Təbiət şəkilimi çəkir yenidən.
Hamı bu dünyada qocalacaqdı,
Amma tək qocalmaq
dərd verir hərdən.

“Dağlar” deyə-deyə mən
dağ aşmışam,
Hanı tale dostum, ürəkdən gülən?!
Dünyada yaşayıb dünyalaşmışam,
Dünyayla düz gəlmir daha
mən deyən.

Daddim acısını şirin həyatın,
Hələ bu acıdan doyan olmayıb.
Qızım qardaşınla sən olmasaydın,
Deyərdim dünyada anan olmayıb.

Daha yaş artdıqca, səbrim azalır.
Yaş aşdı...Neyləsin yaş əyir,qızım,
Qadınsız ata da anasız, qalır
Ürəyim ananı istəyir qızım...

### Tələbəlik

Durur ayrıldığım kölgəli çinar,
Durur Gəncədəki bizim institut.
Xəyalım bir yerdə tutmadı qərar,
İlləri andırdı bir anlıq sükut.

Neyləyim, unutmur insan ürəyi,
Yaşadım dünyadan könlü yanıqlı.
Düz dörd il geyindim
köhnə pencəyi,
Qolu gödək oldu, boynu yamaqlı.

O pencək saxladı məni soyuqdan,
Doğru danışmağı çoxu ar bilir.
Əynindən çıxardıb vermişdi atan,
Heç kim bilməsə də qonşular bilir.

Bəzən ac da qaldım
daha nə danmaq,
Danışıb gülməyə könlüm olmadı.
Şeirim qəzetə çap oldu, ancaq
Bir qəzet almağa pulum olmadı.

Lakin bu dərdimi bilmədi heç kim,
Mən bildim qədrini sevincin, qə-
min.
Arabir xəlvəti baxıb sevindim,
Təzə yamağına köhnə çəkməmin.

Gülmə, görməmisən o sevinci sən,
Xoşbəxt böyümüsən, xoşbəxt ol,
anam.
Bir də bilirsənmi mən o sevincdən
Dünyada heç kəsə arzulamıram.

Oldu sevincim də, oldu qəmim də,
Bir tələbə qıza könlümü verdim.
Onun hər sözünü öz aləmimdə
Seminar dərsitək əzbərləyirdim.

Deyirdim, nə qədər baha olsa da,
Gərək üzük alım, bu bir adətdir.
Ancaq avtobusun keçib yanından,
Piyada gedirdim dərsə arabir.

Qoy indi ağrısın vicdanı varsa -
Girdi aramıza onda bir nəfər.
Bir gəncin taleyi alt-üst olursa,
Ağırdır dağılan ailə qədər.

Fikir ver hökmünə sən misalların,
Deyir su quyunun dibində olur.
Hayıf ki, ürəyi bəzi qızların
Başqa oğlanların cibində olur.

Qoy bir söz də deyim, çıxarma
yaddan,
Bu da, necə deyər, bir məsləhətdi.
Çalış ki, əvvəlcə yanılmayasan,
Təəssüf ikinci məğlubiyyətdi.

Ömrün yolları da pilləkən kimi
Gendən ucalara lap çox baxmışam.
Mən o pillələrlə bir insan kimi
Gör ki, necə gəlib, necə qalxmışam.

### Bir az möhlət istəyirəm ömürdən

Saçlarımın rəngindədi gödəkçəm,
yarı bozdu, yarı qara, yarı ağ.
Təbiət öz saydığını sayacaq.
bir ömrün fəsilləri qarışmış, -
Yarı yazdı, yarı payız, yarı qış.

Uzaqdımı, yaxındımı mənzilim,
mən dağ qalxdım dağı
aşan kimiyəm.
Dünya gördüm, dünyalaşan
kimiyəm;
bələd oldum hər üzünə həyatın,
Gecəsinə, gündüzünə həyatın.

Bir az möhlət istəyirəm ömürdən,
nə qədər ki, bu dünyada biz varıq,
bu dünyanı yaşadırıq, yaşarıq, -
sən olarsan, mən olaram - ikimiz.
Həyat şirin, dünya gözəl, sən əziz...

## Allah rəhmət eləsin!

Rəvan Rəsulzadə, Azər Məlikov və Ramin Orucov dostlar adından Zaur Qasımova atası

ARİF KAMAL OĞLU QASIMOVUN

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə səbr diləyirlər.

# Mürəkkəb və çoxşaxəli proses...

Cəmiyyətin inkişafında əsas faktorlardan biri informasiya mədəniyyətidir. Məlumdur ki, insan daim ətraf mühit ilə informasiya mübadiləsində olur. Hazırkı dövrdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsi hər bir ölkənin mühüm göstəricilərindən hesab olunur. İnformasiya cəmiyyətinin formalaşması isə mürəkkəb və çoxşaxəli bir prosesdir. Bu prosesin uğurla həyata keçirilməsi cəmiyyətin hər bir üzvünün informasiya texnologiyalarının gündəlik həyatımızda əhəmiyyətini necə dərk etməsindən və ondan necə istifadə etməsindən birbaşa asılıdır.

## Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günüdür

### İnformasiya inqilabları...

Qeyd edək ki, bəşəriyyəti informasiya cəmiyyətinə gətirən yolun əsasında sivilizasiya tarixində baş vermiş informasiya inqilabı dayanır. Belə ki, 1-ci informasiya inqilabı hələ çox qədim zamanlarda insanlar arasında informasiya mübadiləsinin əsasını təşkil edən nitqin meydana gəlməsi və inkişafı ilə baş verdi. 2-ci informasiya inqilabı təxminən 5-6 min il bundan əvvəl yazının meydana gəlməsi ilə əlaqədardır. 3-cü informasiya inqilabı 15-ci əsrin sonuna təsadüf edir. Belə ki, 1947-ci ildə alman alimi Quttenberq kitab çapı texnologiyasını ixtira etməklə bu inqilabın əsasını qoydu. 4-cü informasiya inqilabının əsasını isə elektrik kəşfi nəticəsində telefon, teleqraf texnologiyasının meydana gəlməsi təşkil edir. Sonralar elmi-texniki tərəqqinin inkişafı nəticəsində isə radio və televiziya kəşf olundu. Beləliklə, bu inqilabın verdiyi imkanlar hesabına informasiya bolluğu yaranmağa başladı.



### Azərbaycanda informasiya cəmiyyəti

Dünya ölkələrində olduğu kimi Azərbaycanda da 17 may Ümumdünya İnformasiya Cəmiyyəti Günü kimi qeyd olunur. Qeyd edək ki, Azərbaycan BMT-nin Beynəlxalq Telekommunikasiya İttifaqı ilə münasibətlərini yüksək səviyyədə həyata keçirir. Ölkəmiz 1992-ci ildən bu təşkilatın üzvüdür. Bu gün ölkəmizdə dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, bank işi və digər sahələrdə yeni dəyərlər yaradan İKT ictimai-iqtisadi münasibətlərin vacib tərkib hissəsinə çevrilib. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır.

### İnformasiya təhlükəsizliyi...

İnformasiya təhlükəsizliyi kifayət qədər mürəkkəb və geniş anlayışdır, onun vahid, birmənalı elmi tərifi yoxdur. Hazırda informasiya təhlükəsizliyi problemləri həm vətəndaşlar, həm də təşkilatlar üçün aktualdır. İnformasiya təhlükəsizliyi dövlət idarəçiliyində də vacib prosesə çevrilir. Bu təhlükəsizliyin təmin edilməsi problemlərinə müasir baxışlar xeyli genişlənib və indi onun vacib aspektlərini texnoloji məsələlər deyil, daha çox idarəetmə, yeni menecment problemləri və müvafiq idarəetmə sisteminin keyfiyyəti məsələləri təşkil edir. Qloballaşma şəraitində təşkilatlar daha yaxşı rəqabət qabiliyyətini təmin etmək üçün informasiya təhlükəsizliyi infrastrukturunun bütün elementlərinin mərkəzləşdirilmiş idarə edilməsinə üstünlük verirlər. İnformasiya təhlükəsizliyinin idarə edilməsinə belə yanaşma idarəetmənin geniş yayılmaqda olan texnologiyası kimi e-dövlət üçün də təbii seçimdir.

### “Rəqəmsal transformasiyada gender bərabərliyi”

Bu gün informasiya cəmiyyəti mahiyyət etibarı ilə qlobal xarakter alıb. Hətta bu cəmiyyətin şərəfinə yeni bir təqvim də təsis edilib. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası 2006-cı ildə 17 may tarixini “Ümumdünya İnformasiya Cəmiyyəti Günü” elan edib.

Bu gün üçün hər il bir mövzu müəyyən edilir. 2025-ci il üçün seçilmiş mövzu “Rəqəmsal transformasiyada gender bərabərliyi”dir.

Bu günün may ayının 17-də qeyd olunmasının tarixi səbəbləri var: məhz həmin gün 1865-ci ildə Parisdə 20 Avropa ölkəsinin nümayəndələri tərəfindən Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) yaradılması haqqında müqavilə imzalanıb. Belə bir ittifaqın yaradılmasının əsas məqsədi həmin dövrə məxsus teleqraf əlaqələri üçün vahid standartları müəyyən etmək idi.

*Yeganə BAYRAMOVA*

# “Lal qatil”

## Ümumdünya Hipertoniya ilə Mübarizə Günüdür

Yüksək qan təzyiqi müasir bir epidemiya olaraq xarakterizə olunur. Hipertoniya xəstəliyi olan insanlar müalicə alır və daim tibbi nəzarətdə olurlar. Lakin elə hipertoniyalı xəstələr də var ki, onlar özlərində arterial təzyiqinin yüksək olduğundan xəbərsizdirlər.

Nəzərə alsaq ki, hipertoniya dünyada ürək və insult xəstəliklərinin ən başlıca səbəbi sayılır. Nəzarət və vaxtında müalicə edilməyən hipertoniya infarkta, ürəyin genişlənməsinə və nəticədə ürək çatışmazlığına səbəb olur. Hipertoniya, həmçinin böyrək çatışmazlığı, beyin-qan dövranının pozulması və digər sağlamlıq problemləri ilə nəticələnə bilər.

Artıq 20 ildir ki, mayın 17-si Ümumdünya Hipertoniya ilə Mübarizə Günü kimi qeyd edilir. Əlamətdar günün builki mövzusu “Qan Təzyiqinizi Dəqiq Ölçün, Ona Nəzarət Edin, Daha Uzun Yaşayın!” adlanır.

### Hipertoniyaya daha çox hansı yaşlarda rast gəlinir?

Yaşadığımız qloballaşan dünyada hipertoniya xəstəliyi getdikcə cavanlaşır. Əgər əvvəllər adətən yaşı 40-ı keçmiş insanlar bu xəstəlikdən əziyyət çəkirdisə, hazırda gənclər də xəstəliyin qurbanına çevrilib. Ona görə də, hər bir evdə qan təzyiqini ölçən tonometr olmalı, bütün ailə üzvləri ondan istifadə etməyi öyrənməlidirlər.

Bu xəstəliyin bir mənfi cəhəti də ondan ibarətdir ki, o, tamamilə simptom müşahidə edilmədən, yəni əlamətsiz irəliləyir. Həkimlər hipertoniyanı “lal qatil” də adlandırırlar.



### Tam sağalmaq mümkündür?

Hipertoniyanın müalicəsi mürəkkəbdir və mərhələdən, şiddətindən, səbəblərindən, insanın cinsindən, yaşından və digər amillərdən asılıdır. Xəstəliyi tamamilə müalicə etmək mümkün deyil, lakin xəstənin vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq və həyati təhlükəsi olan ağırlaşmaların başlanğıcını uzun müddət təxirə salmaq mümkündür.

Dərmanlar yalnız təzyiqi azaltmağa kömək edir. Belə ki, xəstəliyin səbəbini aradan qaldırmaq üçün həyat tərzinizi tamamilə dəyişdirmək tələb olunur. Bunun üçün pis vərdişlərdən uzaq olmalı: siqaretdən, alkoqollu içkilərdən birdəfəlik qurtulmaq, düzgün və sağlam qidalanmaq, açıq havada gəzmək lazımdır.

### Xəstəliyin yaranma səbəbləri...

Qan təzyiqinin qalxmasının başlıca səbəbi qan axınına çətinlik yaradan kiçik damarların daxilində boşluğun azalmasıdır. Sadə dildə desək, bu zaman qan damarlarının divarlarına təzyiq artır, arterial təzyiq yüksəlir, çünki ürək əzələsi qanı axına itələmək üçün daha çox qüvvə tələb edir. Xəstəliyin inkişaf riskinə aşağıdakı amillər aiddir:

Xəstənin yaşı, xolesterinin səviyyəsi (6,5 mmol/litrdən artıq), irsi (qohumlarda ürək-damar xəstəlikərinin olması), siqaret çəkmək, piylənmə, şəkərli diabet, yaşlı insanlarda oturaq həyat tərzi.

Hipertoniya xəstəliyinin yaranma səbəblərinə həmçinin, yağlı və duzlu yeməklərdən, un məmulatlarından, şəkərdən çox istifadə aiddir.

*Yeganə BAYRAMOVA*

# ADA Universitetinin 12 tələbəsi Azercell-də təcrübə keçəcək

İnsan kapitalının dayanıqlı inkişafına dəstək verən Azercell ADA Universitetinin keçirdiyi “İşəgötürülmə qabiliyyəti həftəsi 2025” (“Employability Week 2025”) çərçivəsində tələbələr üçün silsilə seminarlar və interaktiv sessiyalar təşkil etdi.

Bilik və bacarıqların qiymətləndirilməsi mərhələlərindən uğurla keçmiş 12 ADA Universiteti tələbəsi Azercell-in Yay Təcrübə Proqramında iştirak hüququ qazandı. Seçilmiş tələbələr 3 ay müddətində şirkətin müxtəlif departamentlərində real iş mühitində təcrübə keçəcək, peşəkar bacarıqlarını inkişaf etdirmək və əmək bazarına daha hazırlıqlı daxil olmaq imkanı əldə edəcəklər.

Azercell-in təcrübə proqramı gənclərin potensialını üzə çıxarmaq, gələcəyin ixtisaslı mütəxəssislərinin yetişdirilməsinə dəstək olmaq məqsədi daşıyır.




Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4952
Sifariş: 1004
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova